Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

6
AVQUST
2019-cu il
№ 137 (4035)
Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# ERMƏNİSTAN BARƏDƏ 2014-də HAZIRLANDIĞI DEYİLƏN GİZLİ HESABAT - PAŞİNYANIN YENİ OYUNU BARƏDƏ ŞÜBHƏLƏR BAŞ QALDIRIB...

■ səh. 7 ■



## Prezident 12 il stajı olanlara pensiya almaları xatirinə 25 illik staj hədiyyə etdi...

■ səh. 4 ■





**Prezident 2018-in sonlarında 2019-cu il barədə nə vəd etmişdi və nə aldıq...**

■ səh. 3 ■

**Azərbaycan qazına müştəri düşən Avropa ölkələri sıraya düzülür...**

■ səh. 8 ■

**1993-cü ildə Elçibəy AXC-nin oğurlanan pul fondu və Əli Kərimliyə uzanan şübhələr...**

■ səh. 7 ■

Azərbaycan diplomatiyasının əldə etdiyi nəticələr Ermənistanda şok effekti yaradır

■ səh. 9 ■

Prezidentin KİV-ə dəstək kursunu hədəfə alan deputat nə məqsəd güdür?

■ səh. 5 ■

ABŞ və Türkiyə hərbçilərinin Suriyada üz-üzə gəliş təhlükəsi artır

■ səh. 10 ■

Bir ildə cəmi iki "Paket" və Azərbaycan əhalisinin tən yarısı yeni himayə altına alındı

■ səh. 6 ■

Dövlət müşavirəsi Azərbaycanda dollarlaşma səviyyəsinə qiymət verdi...

■ səh. 6 ■

Yasamaldakı "Günəş petrol"dan dairəvi yoladək bir ədəd də işıq dirəyi yoxdur - Sakinlər Prezidentin iradına fəal dəstək verdilər

■ səh. 15 ■

Aztəminatlı ailələrin müdafiəsinə yönəldilmiş 1,3 milyon manat vəsait nə deməkdir...

■ səh. 12 ■

■ səh. 2 ■

"Xalq" da Vahid Əhmədovun suçunu bağışlamadı...



■ səh. 4 ■

Azərbaycan polisinə qarşı kampaniyaçılığın xaricə çıxan kökləri...



■ səh. 12 ■

Sosial müdafiənin iki mühüm parametrinə görə Azərbaycan MDB-də I və II yerləri tutdu



■ səh. 13 ■

DOST mərkəzlərinin göstərdiyi 126 xidmətə nələr daxildir...



■ səh. 14 ■

İki ildə özünüməşğul ailələrin sayı 16 minə çatdırılacaq...



## Mehriban Əliyeva Bakıda keçirilən Beynəlxalq Olimpiada iştirakçılarına məktubla müraciət etdi

*"İnformasiya cəmiyyətinin qurulması istiqamətində mühüm addımlar atan Azərbaycanda məktəblər arasında olimpiada hərəkatı ildən-ilə geniş vüsət almaqdadır"*

**Azərbaycanın Birinci Vitse-prezidenti Mehriban Əliyeva Bakıda keçirilən 31-ci Beynəlxalq İnformatika Olimpiadasının iştirakçılarına rəsmi məktub ünvanlayıb.**



"Trend"in məlumatına görə, təbrik məktubunu Beynəlxalq İnformatika Olimpiadasının açılış mərasimində Azərbaycan Prezidenti Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva oxuyub.

Təbrik məktubunda bildirilir: "Əziz və hörmətli olimpiada iştirakçıları! Sizi - dünyanın müxtəlif guşələrindən Bakıya toplaşmış 31-ci Beynəlxalq İnformatika Olimpiadasının iştirakçılarını səmimi qəlbdən salamlayır, hamınıza uğurlar arzu edirəm.

Ümidvaram ki, olimpiada informatika sahəsinin yeni istedadlarının üzə çıxarılması, gənclərin informatikaya maraqlarının daha da güclənməsi və təmsilçi ölkələrin sıralarının genişlənməsi işinə öz töhfəsini verəcək".

Müraciətdə qeyd olunur ki, biliklərə əsaslanan cəmiyyətin formalaşdığı və rəqəmsal bacarıqların son dərəcə zəruri olduğu indiki dövrdə informasiya kommunikasiya texnologiyaları elmi potensialın vacib göstəricilərindən birinə çevrilmişdir. İnformasiya iqtisadiyyatda, elmdə və cəmiyyət həyatında böyük əhəmiyyətə malikdir. Dünya informasiya şəbəkəsinin yaradılması isə kompüter biliklərinin rolunu xeyli artırmışdır:

"31-ci Beynəlxalq İnformatika Olimpiadası bu baxımdan qarşınızda yeni üfüqlər açır. Kompüter elmləri üzrə ən mötəbər müsabiqələr arasında özünəməxsus yer tutan bu bilik yarışı arzularınızın gerçəkləşməsi və həyat yolunuzun müəyyənləşməsinə ciddi təsir göstərəcək".

Müraciətdə daha sonra bildirilir: "Hazırki olimpiadanın Azərbaycanda təşkili təsadüfi deyil. Belə ki, informasiya cəmiyyətinin qurulması istiqamətində mühüm addımlar atan ölkəmizdə məktəblər arasında olimpiada hərəkatı ildən-ilə geniş vüsət almaqdadır. Məktəblilərimiz beynəlxalq olimpiadalarda öz müvəffəqiyyətlərinin davamlı inkişafına nail olaraq son illər ərzində ümumilikdə 160 medal qazanmışdır. Bu olimpiada günlərində siz eyni zamanda Azərbaycanın keçmişi, bu günü və zəngin tarixi, mədəni dəyərləri ilə yaxından tanış olmaq, eləcə də yeni-yeni dostlar tapmaq imkanı əldə edəcəksiniz. Olimpiadanın uzun illər hər birinizin yaddaşında xoş xatirə kimi qalacağına əminəm. İnanıram ki, sizə bəslənən ümidləri gələcək fəaliyyətinizdə layiqincə doğruldacaqsınız".

# Prezident İlham Əliyev Donald Trampa qanlı cinayət qurbanlarına görə başsağlığı verdi

**Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının prezidenti Donald Trampa başsağlığı verib.**

Başsağlığında deyilir: "Hörmətli cənab Prezident. Texas, Ohayo və İllinoys ştatlarında törədilmiş silahlı hücumlar nəticəsində insan tələfatı və yaralananlar barədə xəbərdən olduqca kədərləndim.

Bu dəhşətli hadisələrlə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram".



# "Xalq" da Vahid Əhmədovun suçunu bağışlamadı...

*KİVDF-nin fəaliyyəti şəffafdır, səmərəlidir və Azərbaycan mətbuatının gələcək inkişafına xidmət edir*



**Günümüzdə təəccüb doğuracaq hadisələr az deyil. Lakin ara-sıra elə hallar da olur ki, buna təkcə təəccüblənmir, həm də dərindən təəssüflənirsən. Milli Məclisin deputatı kimi xalq mandatı almış, yaxın keçmişdə təsərrüfat və hökumət idarəçiliyində məsul vəzifələrdə çalışmış Vahid Əhmədovun ölkənin kütləvi informasiya vasitələrində islahatlar aparılması ilə bağlı gerçəkliyə uyğun gəlməyən, jurnalistlərin kəskin etiraz və qınağına məruz qalan açıqlaması da məhz belə təəccüb və təəssüf doğurdu.**

Deputat Vahid Əhmədovun KİV-də islahatlar aparmaq zərurətindən söz açması o qədər də gözlənilməz deyil. Çünki hazırda, özünün də vurğuladığı kimi, ölkə həyatının bütün sahələrində yeni hədəflərə ünvanlanmış dərin və genişmiqyaslı islahatlar gedir. İlk növbədə, sosial-iqtisadi sahədə yeni uğurlar qazandıran islahatlar, təbii olaraq, qeyri- istehsal və mənəvi fəaliyyət sahələrində də uyğun yeniləşmə ilə tamamlanmalıdır. Söhbət KİV-də yeniləşmədən, zəruri islahatdan gedirsə, yəqin Vahid müəllim bilməmiş deyil ki, ötən dövrdə sosial-iqtisadi yüksəlişə müvafiq olaraq bu sahədə də davamlı yeniliklərə meydan açılıb, uğurlu nəticələr əldə edilib.

Cənab deputatın bu gün heç bir əsas olmadan qınaq hədəfinə çevirdiyi və ləğv olunmasını təklif etdiyi KİV-ə Dövlət Dəstəyi Fondu məhz bu islahatların zəruri halqalarından biri kimi yaradılıb. Özü də bu layihə aşağıdan jurnalistika qurumlarının, yuxarıdan dövlət rəhbərliyinin xoş məramı sayəsində ərsəyə gəlib və ötən illərdən bəri uğurla fəaliyyət göstərməkdədir.

KİVDF-nin yaradılması ideyası gündəmə gələndə KİV-in 15 ildən artıq bir dövrdə bazar iqtisadiyyatı şəraitində fəaliyyəti dərindən təhlil olunub, qabaqcıl dünya təcrübəsi diqqətlə öyrənilib. Vahid müəllim bilməlidir ki, "islahat" adı altında KİVDF-nin ləğv edilməsi ölkə mediasını ötən əsrin 90-cı illərinin əvvəlində olduğu kimi yenidən böhranla üzləşdirər. O zaman Vahid Əhmədov KİVDF-nin yenidən yaradılmasını təklif etməzmi? KİVDF 10 ildən artıqdır ki, uğurlu layihələr həyata keçirir, KİV-in bazar şəraitində fəaliyyətinin zəruri bir seqmentinə çevrilib. Şübhəsiz, bu qurumun uğurları, qarşıdakı illərdə daha geniş miqyas alacaq. Cənab deputat yaxşı bilir ki, ümummilli məramlara xidmət edən qeyri-istehsal sahələri - teatr, kino, media, elm, təhsil, vətəndaş cəmiyyəti qurumları ölkənin iqtisadi-sosial imkanları daxilində hamının və hər kəsin maraqlarının təmin edilməsi naminə dövlət tərəfindən himayə olunur. Vahid müəllimin indiki təklifi dolayı yolla o deməkdir ki, gəlin jurnalistlərin min bir əziyyəti bahasına, dövlətin zəruri himayəsi hesabına dirçəldilib inkişaf yoluna çıxarılmış milli demokratik mediamızı taleyin ümidinə buraxaq. Cənab deputat iqtisadi fəaliyyət sahəsinin adamı olduğu üçün bilməmiş deyil ki, bir qəzet nömrəsinin indiki 40 qəpiklik qiyməti heç onun kağızının və çapının xərcini ödəmir. Bazar şəraitində redaksiyaların kağız və çap xərclərini ödəyib, əməkdaşlarına isə Vahid müəllimin deputat maaşının yarısı qədər əməkhaqqı verməsi üçün gərək 1 nüsxə qəzet 2 manata satılsın.

KİV cəmiyyətdə xoş məramla hamıya təmənnasız xidmət göstərən mənəvi-məfkurəvi fəaliyyət sahəsidir. Bu mənada tanınmışlar, məşhurlar onun bu xidmətindən daha çox faydalanırlar. Vahid Əhmədov da əvvəlki uğurlarına və nüfuzuna, indiki məşhurluğuna görə, şəxsi keyfiyyətləri ilə yanaşı, jurnalistlərin bu sahədə ona yaratdığı bol-bol imkanlara da borclu olmalıdır. Borcu belə mi qaytarırlar? Biz iqtisadi fəaliyyət sahəsi mütəxəssisi olduğuna görə Vahid Əhmədovdan indiki şəraitdə Azərbaycan KİV-nin durumunu, bazara uyğunlaşma axtarışlarını dərindən öyrənib, gerçək, faydalı təkliflər verməsini gözləyirik.

Onun barmaqla sayılacaq qədər "media cəfakeşi"nin demaqogiyasına belə asanlıqla uyması nə qədər təəccüblüdürsə, bir o qədər də təəssüfləndiricidir. Bu gün ölkəmizdə 5 mindən çox kütləvi informasiya vasitəsi qeydiyyatdan keçib. Onda media sahəsində hansı "monopoliya"dan söhbət açılır?! Məntiqsiz deyilmi?

KİVDF Müşahidə Şurasının sədri kimi qətiyyətlə bəyan edirəm ki, Fondun fəaliyyəti tam şəffafdır, səmərəlidir və Azərbaycan mətbuatının gələcək inkişafına xidmət edir.

***Həsən HƏSƏNOV***
***"Xalq qəzeti"nin baş redaktoru, respublikanın Əməkdar jurnalisti***

## 30 əsgərin xərçəngə yoluxduğu iddia edildi

**İsraildə "Dəmir Qübbə" hava hücumundan müdafiə sistemində işləyən 30 əsgər xərçəngə yoluxub.**

Baki-xeber.com Türkiyə mediasına istinadən xəbər verir ki, bunu İsrailin "Kanal 13" telekanalının əməkdaşı, jurnalist Adama Şefr tvitter hesabında yazıb.

Jurnalist, İsrail əsgərlərinin hava hücumundan müdafiə sistemində işləməsi ilə xəstəliyə yoluxmaları arasında bağlılığın olub-olmamasının araşdırılmasını tələb edib.

İsrail məsələ ilə bağlı rəsmi açıqlama verməyib.

Xatırladaq ki, "Dəmir Qübbə" hava hücumundan müdafiə sistemi qısamənzilli raketlərə qarşı istifadə edilir.

# Prezident 2018-in sonlarında 2019-cu il barədə nə vəd etmişdi və nə aldıq...

## Fəzail İbrahimli: ”Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar, o cümlədən də kadr islahatları, yeni mərkəzlərin yaradılması, qurumların təsis edilməsi onu göstərdi ki, 2019-cu il Azərbaycanda ciddi və uğurlu islahatlar ili oldu”

**2019-cu ildə ölkəmizin həyatında yeni bir mərhələnin bünövrəsi qoyuldu. Prezident İlham Əliyev hələ 2018-ci ilin sonlarında Rusiya və digər ölkələrin telekanallarına verdiyi müsahibələrdə 2019-cu ilin Azərbaycan üçün uğurlu bir il olacağını bildirməklə yanaşı, qeyd edirdi ki, bu il Azərbaycanda islahatlar ili olacaq.**

Ölkə başçısı əminliklə bildirirdi ki, 2019-cu ildə ölkəmiz daha da inkişaf edəcək. "Həyata keçirdiyimiz islahatların artıq xeyli hissəsi özünü 2019-cu ildə göstərəcək. Biz Azərbaycan iqtisadiyyatının transformasiyası prosesini bitiririk. Buna görə də düşünürəm ki, iqtisadi inkişaf cəhətdən bütün planlar reallaşdırılacaq. Dövlət büdcəsi də artıq qəbul olunub. O, həmişəki kimi, sosialyönümlüdür. Buna görə də bütün sosial proqramlar həyata keçiriləcək" - deyə Prezident İlham Əliyev vurğulayırdı.

2019-cu ilin ötən dövründə həyata keçirilən islahatlardan nə əldə olundu?

Azərbaycanda həyata keçirilən islahatları "Bakı-Xəbər"ə şərh edən millət vəkili, tarixçi-alim Fəzail İbrahimlinin sözlərinə görə, Prezident İlham Əliyev yalnız xarici telekanallara verdiyi müsahibələrdə deyil, həmçinin, prezident seçkiləri zamanı 2019-cu ilin Azərbaycanda ciddi islahatlar ili olacağını bəyan edib. F.İbrahimli vurğuladı ki, ölkə başçısı islahatlarla bağlı verdiyi vədlərinin hamısını yerinə yetirdi. 2019-cu ildə həyata keçirilən islahatlar nəticəsində bir sıra uğurlar əldə etdiyimizi deyən millət vəkilinin sözlərinə görə, bu özünü ən çox əhalinin sosial rifah halının yüksəldilməsi sahəsində büruzə verdi. "2019-cu il, sözün həqiqi mənasında, Azərbaycan üçün ciddi islahatlar ili oldu. Ölkə başçısının həyata keçirdiyi islahatlar ən çox özünü sosial sahədə göstərdi və əhalinin müxtəlif təbəqələrinin sosial rifah halının yüksəldilməsi istiqamətində dərin islahatlar həyata keçirildi. Prezidentin imzaladığı sosial paketlər əhalidə ruh yüksəkliyi, gələcəyə inam yaratdı.

Bilirsiniz ki, Prezident İlham Əliyev fevral ayında maaşların, pensiyaların, tələbələrin, magistr aspirantların təqaüdlərinin artırılmasına dair 10-dək çox önəmli sərəncam, fərmanlar imzalayıb. Xüsusilə minumum əməkhaqqının birdən-birə 38,5 faiz artması, sözün həqiqi mənasında, sosial inqilab oldu. Müxtəlif sahələrdə işləyən insanların əməkhaqlarının qaldırılması, əhalinin sosial rifah halının yüksəldilməsi istiqamətində həyata keçirilən islahatlardan cəmiyyətimiz, xalqımız qazandı. Əhalinin sosial müdafiəsi sahəsində atılan addımlar cənab Prezidentin bəyan etdiyi islahatların tərkib hissəsinə daxildir. Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar, o cümlədən də kadr islahatları, yeni mərkəzlərin yaradılması, qurumların təsis edilməsi onu göstərdi ki, 2019-cu il Azərbaycanda ciddi və uğurlu islahatlar ili oldu. Diqqətçəkən məqamlardan biri odur ki, sosial-iqtisadi sahədə baş verən islahatlar davamlı xarakter alıb və bunların hamısı da Azərbaycan insanının sosial rifah halının yüksəldilməsinə xidmət edir. Dövlətin əsas iki vəzifəsi var. Biri dövlətin təhlükəsizliyi, digəri isə əhalinin sosial rifah halının yüksəldilməsidir. Hesab edirəm ki, Azərbaycan bir dövlət kimi bu iki mühüm göstəriciyə yüksək səviyyədə nail olub".

F.İbrahimlinin sözlərinə görə, bu gün həm ölkəmizin təhlükəsizliyi, həm də əhalinin sosial rifah halının yüksəldilməsi daim dövlət başçısının diqqətindədir. 2019-cu ilin əvvəlki illərdən fərqlənən çox əhəmiyyətli bir il olduğunu vurğulayan millət vəkilinin sözlərinə görə, hazırda həm daxildə, həm də xaricdə Azərbaycanı istəməyən qüvvələr var, dövlətimiz ölkəmizin təhlükəsizliyini yüksək səviyyədə təmin etməklə həm də vətəndaşlarımızın təhlükəsizliyini təmin edib. "Cənab Prezidentin bəyan etdiyi kimi, 2019-cu ildə ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoydu və bu inkişaf özünü bütün sahələrdə aparılan çox ciddi islahatlarla bir daha təsdiqlədi. Bildiyimiz kimi, islahatların yeni mərhələsinin anonsunu Prezident İlham Əliyev prezident seçkiləri zamanı vermişdi. Doğrudan da keçən bir il ərzində Azərbaycanda çox ciddi və çoxşaxəli islahatlar həyata keçirildi. Qeyd etdiyim kimi, bu islahatların bütün sahələri əhatə etməsi çox müsbət göstəricidir".



”Bu islahatlar özünü daha çox sosial sahədə büruzə verir”

Azərbaycanda aparılan iqtisadi və sosial sahədəki islahatların da müsbət nəticələr verdiyini deyən F.İbrahimli hesab edir ki, həm sosial-iqtisadi, həm kadr, həm də digər sahələrdə islahatlar Azərbaycan xalqının, dövlətinin maraqlarına xidmət edir: "2019-cu il Azərbaycan üçün doğrudan da islahatlar ili oldu və biz bu 8 ay ərzində bütün sahələrdə böyük uğurlar əldə etmişik. Qeyd etdiyim kimi, bu islahatlar özünü daha çox sosial sahədə büruzə verir".

***İradə SARIYEVA***

# Ceyhun Bayramov söz verdi - Beynəlxalq İnformatika Olimpiadasında suallarla bağlı problemin olma ehtimalı yoxdur

**Dünya fənn olimpiada sualları olimpiada ilə bağlı yaradılan beynəlxalq elmi komitədə hazırlanır, suallara yüksək səviyyəli mütəxəssislər tərəfindən dəfələrlə baxılır.**

Buna görə də Beynəlxalq İnformatika Olimpiadasında suallarla bağlı problemin, yaxud texniki məsələnin olması ehtimalı yoxdur. Amma olarsa, bununla bağlı beynəlxalq təşkilat komitəsi rəy verəcək.

"Trend"in məlumatına görə, bunu Təhsil naziri Ceyhun Bayramov Beynəlxalq İnformatika Olimpiadasında suallarla bağlı hər hansı problemin ola bilməsi ehtimalı barədə danışarkən deyib.

Nazirin sözlərinə görə, olimpiadanın ilk müsabiqə günündə iştirakçılara 3 tapşırığın veriləcəyi gözlənilir. Onların cavablandırılması üçün iştirakçılara 5 saat vaxt veriləcək: "Avqustun 8-də müsabiqənin ikinci günü olacaq. Həmin gündə də 3 tapşırıq üçün 5 saat vaxt veriləcək. Böyük ehtimalla, avqustun 8-də günün sonuna yaxın nəticələr təsdiq ediləcək, avqustun 9-da nəticələr açıqlanacaq".

C.Bayramov qeyd edib ki, Azərbaycanda beynəlxalq olimpiada fənlərindən başqa digər fənlər üzrə də respublika olimpiadaları həyata keçirilir: "Azərbaycanda 8 fənn üzrə respublika olimpiadası keçirilir. Şagirdlərin olimpiadaya



cəlbi, eyni zamanda istedadlı uşaqları daha erkən yaşda aşkarlamaq üçün respublika fənn olimpiadalarından əlavə, ölkədə respublika fənn müsabiqələri də keçirilir".

**Azərbaycanın dünyada son dərəcə böyük maraqla qarşılanan milli inkişaf modelinin səciyyəvi xüsusiyyətlərindən biri hökumətin fəaliyyətində sosialyönümlülüyün prioritetə çevrilməsidir. Konstitusion təminatı olan, insan amilinin yüksəlişinə - vətəndaşların maddi, intellektual və mənəvi tələbatlarının dolğun şəkildə ödənilməsinə, cəmiyyətdə sosial ədalət meyarının bərqərar olmasına xidmət edən bu inkişaf strategiyasının uğurları isə şəffaflığa və hesabatlığa əsaslanır.**

# Prezident 12 il stajı olanlara pensiya almaları xatirinə 25 illik staj hədiyyə etdi...



***Pərviz Heydərov:** "Son illər ölkədə sosial sığorta sahəsində inqilabi addımlar atılır"*

Respublikada modern təcrübə, çevik və şəffaf mexanizmlər üzərində gerçəkləşdirilən sığorta-pensiya islahatlarına nəzərən bunu əminliklə demək olar. Məlumdur ki, əvvəllər hər bir vətəndaş yaşa görə əmək pensiyasına çıxan zaman ondan 25 il staj tələb olunurdu. Bu staj olmayan zaman isə müraciət edən vətəndaş pensiyaya çıxa bilmirdi və müəyyən problemlər yaranırdı. Ancaq Azərbaycan Prezidentinin təşəbbüsü ilə sosial sığorta sahəsində inqilabi irəliləyiş təmin edildi. Belə ki, 2006-2018 ci illərdə sığortaya hətta cüzi məbləğ ödəyənlərə də 25 illik sığorta stajı hesablandı. Bunun nəticəsində yanvarın 1-dən heç bir bürokratik əngəl olmadan 13 min nəfərə pensiya təyin olundu. Bu siyasətin davamı olaraq il ərzində pensiyaya çıxan vətəndaşların 80 faizi də əhatə olunacaq.

Sosial sığorta sahəsində baş verən inqilabi dəyişikliyin əhəmiyyəti barəsində danışan iqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, ölkədə pensiya-sığorta sistemi ilə əlaqədar aparılan islahatlar sosial islahatların tərkib hissəsidir. Məlum olduğu kimi, son illər ölkədə sosial-sığorta sahəsində inqilabi addımlar atılır: "Bunların bəziləri istənilən nəticəni verməmdi. Ancaq son illər bu sahədə müsbət irəliləyişlər nəzərə çarpır".

İqtisadçının sözlərinə görə, cari ilin 6 ayı ərzində ölkədə sığorta ayırmalarında çox böyük irəliləyiş qeydə alınıb: "Əmək müqavilələrinin bağlanması nəticəsində müsbət nəticələr əldə olunub. Bütün bunlar əhalinin sosial müdafiəsinin daha yaxşı şəkildə təşkil olunması perspektivini açmaqdadır.

*"...həmin dövrü avtomatik olaraq 25 illik staj kimi qəbul edəcək"*

İş stajı az olanların əmək stajının 25 illik hesablanması əhalinin sosial müdafiəsinin güclənməsi baxımımdan olduqca əhəmiyyətlidir. Bəllidir ki, 2019-cu ilin əvvəlində "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun qüvvəyə minib. Həmin qanun 2006-cı ilədək pensiyaya çıxanlarla bağlıdır. Danılmaz faktdır ki, vətəndaşlar bu dövrdə olan sığorta stajını təsdiq etmək üçün arxivlərə, yaxud ləğv olunmuş müəssisələrə müraciət etməli olurlar. Bu halda da çoxlu mübahisə yaranır, iş məhkəmələrə qədər uzanır. Bu dəyişikliyin mahiyyəti isə ondan ibarətdir ki, dövlət 25 illik dövrü, 01.01.2006-cı ilə qədər olan dövrü vətəndaşlara hədiyyə edəcək, yəni həmin dövrü avtomatik olaraq 25 illik staj kimi qəbul edəcək. 2006-cı ildən sonra elektron baza olduğu üçün, pensiyaya çıxacaq şəxsin sığorta stajı və ödədiyi sığorta haqları bazadan görünəcək".

Həmsöhbətimiz onu da bildirdi ki, Azərbaycan Prezidentinin sosial islahatlarla bağlı layihələri hələ davam edəcək. Sosial paketin təqdim edilməsi ilə yanaşı, sosial islahatların davam etdirilməsi olduqca təqdirəlayiqdir.

***Günel CƏLİLOVA***

**İctimai-siyasi sabitlik hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolu seçmiş hər bir dövlətin mövcudluğunun mühüm şərtlərindən biridir. Ölkəmizdə ictimai asayişin, qanunçuluğun və hüquq qaydalarının etibarlı təminatı, vətəndaşların konstitusion mənafelərinin yüksək səviyyədə qorunması, kriminogen durumun sabitliyi Azərbaycanın ötən müddətdə qazandığı ən mühüm nailiyyətlər sırasındadır.**

# Azərbaycan polisinə qarşı kampaniyaçılığın xaricə çıxan kökləri...




***Məhərrəm Zülfüqarlı:** "Xaricdə müəyyən mərkəzlər var ki, Azərbaycanı zəiflətmək üçün ölkədəki mövcud quruluşu tənqid edirlər"*

Danılmaz həqiqətdir ki, ölkədə ictimai-siyasi sabitlik şəraitində inkişafda, ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizənin səmərəli təşkilində, dövlətçiliyin hər cür cinayətkar qəsdlərdən müdafiəsində, vətəndaşların təhlükəsiz yaşamaq kimi fundamental hüququnun təminatında Daxili İşlər Nazirliyinin və onun ayrı-ayrı strukturlarının müstəsna rolu var. Cinayətkarlığın bütün forma və təzahürlərinə qarşı barışmaz mövqe tutan daxili işlər orqanları qanunla üzərinə düşən vəzifələri yerinə yetirir. İqtisadi inkişafın mühüm şərti olan sabitliyin təminatı üçün bütün zəruri tədbirləri həyata keçirməklə xalqın və dövlətin sadiq keşikçisinə çevrilib. Bir sözlə, ölkədə sabitliyin təmin olunmasında başlıca faktorlardan biri polisin göstərdiyi fəaliyyətdir. Polisin fəaliyyəti olmadan bu mümkün deyil. Ancaq o da var ki, son vaxtlar polisi qaralamaq səylərində müəyyən fəallaşma var. Polisin imicinə kölgə salmaq üçün müxtəlif vasitələrə əl atırlar. Adi bir məsələni şişirdib bu minvalla polisi qaralamağa çalışırlar. Bunun daxildə köklərinin olması məlumdu. Çünki müəyyən radikal mövqedən çıxış edən qüvvələrin, şəxslərin polisə qarşı kampaniya aparmaları bir növ "ənənə" halını alıb. Maraqlıdır, polisə qarşı qaralama kampaniyasının xaricdən də idarə olunan telləri ola bilərmi? Ekspertlər bu ehtimalı necə dəyərləndirir?

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlı bunu istisna etmədi: "Çünki xaricdə müəyyən mərkəzlər var ki, Azərbaycanı zəiflətmək üçün ölkədəki mövcud quruluşu tənqid edirlər. Ara-sıra müxtəlif böhtanlar atırlar. Bu minvalla Azərbaycanı zəiflətməyə çalışırlar. Hansısa çatışmazlığı şişirtməyə səy göstərirlər. Xüsusən də polisi gözdən salmağa cəht edirlər. Çünki

*"Sözügedən qaralama kampaniyası da bunun tərkib hissəsidir"*

həmin qüvvələr yaxşı bilir ki, polis dövlətçiliyin dayağıdır. Prezident İlham Əliyevin polisin fəaliyyətini yüksək qiymətləndirməsi, onların əməkhaqlarını artırması bəzi qüvvələri qıcıqlandırır. Bəzi dairələr Azərbaycanda idarəolunmaz bir prosesin olmasını istəyir. Bu səbəbdən hər fürsətdə istəyirlər ki, polisi gözdən salsınlar. İstəyirlər ki, Ukrayna və Gürcüstanda olduğu kimi, Azərbaycanda da ara qarışsın, polis neytral olsun. Bir sözlə, hakimiyyəti zəiflətmək üçün güc strukturları hədəfə alınır. Sözügedən qaralama kampaniyası da bunun tərkib hissəsidir".

***Vidadi ORDAHALLI***

# Prezidentin KİV-ə dəstək kursunu hədəfə alan deputat nə məqsəd güdür?

**Millət vəkili Vahid Əhmədovun öz fəaliyyət sahəsinə uyğun olmayan bir mövzu ilə bağlı səsləndirdiyi, heç bir konkret fakta söykənməyən ümumiləşdirmiş fikirlərinə ölkənin aparıcı media təmsilçilərinin etirazı davam edir. Bu gün də əlaqə saxladığımız bir neçə tanınmış qəzetin baş redaktorları deputatın açıqlamasına etirazlarını bildiriblər. Konkret olaraq deyiblər ki, KİVDF fəaliyyət göstərdiyi 10 il ərzində qarşısına qoyulan vəzifənin öhdəsindən layiqincə gəlib, çap mediasının inkiafına böyük dəstək verib.**

Vahid Əhmədov bildirib ki, bütün sahələrdə və qurumlarda olduğu kimi, media sahəsində də ciddi islahatlar aparılmalıdır: "Ümumiyyətlə, yaranan qurumlar effektiv işləməlidirlər, özlərini doğrultmalıdırlar. Cənab Prezident tərəfindən aparılan islahatların da son məqsədi məhz inkişafa nail olmaqdır. Bu baxımdan, Azərbaycan mediasında da ciddi islahatlara ehtiyac var. Mən bunu bir neçə dəfə söyləmişəm. Bu islahatları aparmaq lazımdır ki, mətbuat nüfuz qazansın və özünü saxlaya bilsin. Necə ki iqtisadi, hüquq və digər sahələrdə uğurlu islahatlara start verilibsə, hesab edirəm ki, media sahəsində də böyük islahatlar olmalıdır". V.Əhmədov deyib ki, hazırda KİVDF-nin fəaliyyətindən ciddi narazılıqlar mövcuddur: "Bu narazılıqlar zaman-zaman Azərbaycanın bir sıra tanınmış və peşəkar jurnalistləri tərəfindən də dilə gətirilir. KİVDF və digər bu kimi media təşkilatlarının fəaliyyətinə dərindən baxmaq lazımdır ki, bu qurumlar özünü doğrulda bilib, yoxsa bilməyib. Bunu media sahəsində çalışan insanlar çox gözəl bilirlər. Mənim bildiyim məlumata görə, KİVDF-nin fəaliyyəti ilə bağlı jurnalistlər çox ciddi problemlərlə üzləşiblər. Bu sahədə müəyyən problemlər yaranıb. KİVDF-nin ədalətsiz fəaliyyətindən narazı qalan jurnalistlərimiz var. Bu problemi ümumi kontekstdə həll etmək lazımdır. Yəni Azərbaycanda aparılan dərin islahatlar kontekstində KİVDF-nin də fəaliyyətinə baxmaq lazımdır". Deputat qeyd edib ki, hazırda Azərbaycan mətbuatında çox ciddi monopoliya mövcuddur: "Mən sizə açıq deyim ki, mətbuatımızda çox ciddi monopoliya var. Mən islahatlar deyəndə əsasən də bu problemin aradan qaldırılmasını nəzərdə tuturam. Yəni bu sahədə mövcud olan monopoliya aradan qaldırılmalıdır. Dövlətdən vəsait alan qəzet və saytların əksəriyyətinin arxasında müəyyən qüvvələr dayanır və onları maliyyələşdirir. Üstəlik də dövlət tərəfindən onlara yardımlar edilir. Halbuki, həmin KİV-lər bazarın ixtiyarına buraxılmalı idi ki, özü-özünü doğrultsun. Əgər imkanı, peşəkarlığı olacaqsa, o yaşayacaq. Peşəkarlığı olmayacaqsa, o zaman gedib başqa işlə məşğul olacaq. Bütün dünyada media bu cür fəaliyyət göstərir. Yəni KİV-i öz peşəkarlıqlarına görə bazar özü tənzimləməlidir. Dövlət hər dəfə bu qəzetlərə milyonlar xərcləyir, onları saxlayır. Axı bu uzun müddət belə davam edə bilməz!".









**Vüqar Rəhimzadə: "Vahid Əhmədov konkret göstərsin görək, dövlətdən maliyyə alan qəzetlərə həm də hansı məmurlar maliyyə verir?"**

Millət vəkilinin səsləndirdiyi bu ittiahamlarla bağlı fikirini "Bakı-Xəbər"ə açıqlayan "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə hesab edir ki, millət vəkilinin KİVDF ilə bağlı səsləndirdiyi fikirlər reallığı əks etdirmir: "KİVDF mediaya dəstək sahəsində cənab Prezidentin yaratdığı ən effektiv faliyyət göstərən təsisatdır. Qurum yarandığı 10 il ərzində medianın inkişafı, onun madditexniki durumunun yaxşılaşmasında qəzetlərə əvəzsiz dəstək verib. Bu layihə media tarixində olan ən uğurlu layihələrdən biridir. Bu həm jurnalistlərin peşəkarlığının artırılması üçün böyük əhəmiyyət kəsb edir, həm də onların maddi təminatında önəmli rol oynayır. Redaksiyaların layihələr çərçivəsində maliyyələməsinin müsbət effektini biz görürük. Əgər KİVDF olmasaydı, qəzetlərin taleyini düşünmək çətin olardı. Birmənalı şəkildə hesab edirəm ki, bu təsisatın fəaliyyəti uğurla da davam etdirilməlidir. Kimlərsə narazıdırsa, bu, təbii ki, onların xislətindən irəli gələn bir istəkdi, heç bir obeyktivliyə söykənmir. Bu mövzuda subyektiv yox, obyektiv mövqe ortaya qoymaq lazımdır. Kimlər narazıdırsa, qoy adlarını yazsınlar. Ədalətli yanaşma budur ki, medianın dirçəlməsində KVDF-nin kifayət qədər böyük rolu vardır. Qoy Vahid Əhmədov konkret göstərsin görək, dövlətdən maliyyə alan qəzetlərə həm də hansı məmurlar maliyyə verir? Belə fakt ola bilməz axı".

**Sevinc Seyidova: "Hədəfə aldığı mətbu orqanlar uzun illər ərzində Vahid Əhmədova öz səhifələrində təmənnasız yer vermiş qəzetlərdir"**

"Həftə içi" qəzetinin baş redaktoru Sevinc Seyidova "Bakı-Xəbər"ə bildirdi ki, Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun yaradılması bu illər ərzində Azərbaycanda çap mediasının ayaqda durmasını, jurnalistlərin peşəkarlıq səviyyəsinin artmasını, qəzetlərin maddi-texniki bazasının gücləndirilməsi şərtləndirən ən başlıca amildir: "Dövlətin çap mediasına dəstək siyasətini həyata keçirən bu qurumun fəaliyyəti ilə bağlı zaman-zaman bəzi şəxslər tənqidi fikirlər səsləndirsələr də, onların heç biri tutarlı əsaslara söykənməyib. Təbii ki, hər kəsi razı salmaq mümkün deyil. KİVDF-nin fəaliyyət göstərdiyi 10 il ərzində maliyyə dəstəyi verdiyi qəzetlər Azərbaycan mediasında uzun illər özünü təsdiqləmiş, oxucu kütləsi qazana bilmiş mətbu orqanlardır. Millət vəkili Vahid Əhmədovun KİVDF haqqında səsləndirdiyi son fikirlər təəssüf doğurur. Çünki millət vəkili olaraq hədəfə aldığı mətbu orqanlar uzun illər ərzində Vahid Əhmədova öz səhifələrində təmənnasız yer vermiş qəzetlərdir. İndi KİVDF-nin seçiminin yanlış olması tezisinin ortaya atılması heç bir məntiqə sığmır. Vahid Əhmədov dünya media təcrübəsini örnək göstərir. Lakin bir məqamı unudur ki, bu sahənin peşəkarları olaraq dünyada media sahəsində təcrübənin necə olduğunu hər halda biz daha yaxşı bilirik. Azərbaycan Prezidenti, bir çox sahələrdə olduğu kimi, mediaya dəstək sahəsində də dünyaya nümunə sayıla biləcək iklərə imza atdı. Jurnalistlər təmənnasız mənzillərlə təmin edilir. Azərbaycanın tarixi salnaməsi sayıla biləcək çap mediasının ayaqda qala bilməsi, müasir dünya mediası trendlərinin təcrübəsinə sahib ola bilməsi üçün şəffaf şəkildə maliyyə yardımları ayrılır. Hətta Avropanın bir çox inkişaf etmiş dövlətlərində belə çap mediasına dövlət dəstəyi göstərilir. Bu səbəbdən millət vəkili Vahid Əhmədovun irəli sürdüyü tezislərin heç bir əsası yoxdur".

**Namiq Əliyev: "Bu kriteriyaya uyğun gələn hansısa bir jurnalist KİVDF-dən narazıdırsa, qoy adını desinlər"**

"Palitra" qəzetinin baş redaktoru Namiq Əliyevdə qəzetimizə açıqlamasında Vahid Əhmədovun iddiaları ilə qəti razılaşmadığını bildirdi: "Bizim KİVDF-dən heç bir narazılığımız yoxdur. Çünki bizim qəzetlər də daxil olmaqla, əksər kalssik media nümunələri KİVDF-nin ayırdığı yardım hesabına fəaliyyət göstərir. Həmin qəzetlər də Azərbaycan dövlətinin maraqlarını mediaida layiqincə təmsil edirlər. Mən KİVDF-nin davamlı fəaliyyət göstərməsinin tərəfdarıyam. Qurumun hansısa fəaliyyəti kimisə qane etmirsə, bu başqa məsələdi. Hərənin bir cür baxışı ola bilər. Mənim şəxsi münasibətim budur ki, qurumun fəaliyyəti bizi tam qane edir. Kimsə KVDF-də hansısa təkilləşdirməni görmək istəyirsə, buyursun təklifini versin. Ümumi qurumun və ordan maliyyə alan qəzetlərin fəaliyyətinə kölgə salmaq isə doğru deyil. Deyir ki, ölkənin aparıcı jurnalistləri KİVDF-dən narazıdır. Mən anlamıram, aparıcı jurnalist deyəndə kimi və hansı fəaliyyəti nəzərdə tuturlar? Mətbuatda olan tanınmış simalar bundan narazı deyilsə, kimi nəzərdə tutduqları bəlli deyil. Mənim nəzərimdə aparıcı jurnalist Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edənlərdi. Əgər bu kriteriyaya uyğun gələn hansısa bir jurnalist KİVDF-dən narazıdırsa, qoy adını desinlər, bizim üçün də maraqlı olar. Əminəm ki, belə bir adam tapa bilməyəcəklər".

**Tapdıq Abbas: "KİVDF-nin fəaliyyəti bizə bu gün də lazımdır, hələ uzun müddət bundan sonra da lazım olacaq"**

"Paralel" qəzetinin baş redaktoru Tapdıq Abbas "Bakı-Xəbər"ə bildirdi ki, Vahid Əhmədov medianın fəaliyyət prinsiplərinə yaxşı bələd olan adam deyil: "KİVDF-dən maliyyələşən qəzetlərin hamısı ölkənin ictimai rəyinə təsir etmək gücündə olan KİV nümunələridi. Həmin Fondun fəaliyyəti bütünlükdə mətbuatın inkişafına yönəlib. Bilirsiniz ki, bu Fond ölkə Prezidentinin imzası ilə yaradılıb. Hər halda, işi məqbul sayılır ki, 10 ildi fəaliyyət göstərir. Birmənalı şəkildə deyə bilərik ki, Fond olmasaydı, sosial şəbəkə və elektron medianın inkişaf etdiyi bir dönəmdə klassik media nümunələri sayılan qəzetlərin vəziyyəti pis olardı. Araşdırdıqda məlum olur ki, Avropa ölkələri, hətta Türkiyənin özündə belə dövlət qəzetlərin qorunub saxlanmasına böyük maraq göstərir. Bununla bağlı müxtəlif layihələr icra edilir. Qəzetlərin güya həm də məmurlar tərəfindən himayə olunması ilə bağlı səslənən fikirlərlə də qəti razı deyiləm.

Müstəqil qəzetin rəhbəri olaraq birmənalı şəkildə bildirirəm ki, bizim heç bir məmur himayəsi ilə bağlılığımız yoxdur. Biz KİVDF-dən aldığımız yardımın hesabına həm 17 nəfərlik kollektivi saxlayırıq, həm də dövlətimizin siyasətinə media dəstəyi veririk. Buna görə də mən Vahid Əhmədovun fikirlərini tamamilə rədd edirəm. Hesab edirəm ki, KİVDF-nin fəaliyyəti bizə bu gün də lazımdır, hələ uzun müddət bundan sonra da lazım olacaq. Belə bir Fondun olması Azərbaycan qəzetlərinin ayaqda saxlanmasına xidmət edəcək".

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycan Prezidentinin sosial sferanın inkişaf etdirilməsi, əhalinin rifahının yüksəldilməsi istiqamətində həyata keçirdiyi məqsədyönlü siyasətin əhatə dairəsi doğrudan da çox böyükdür. Məlumdur ki, 2019-cu ilin əvvəlindən başlayaraq Prezident İlham Əliyev iki böyük sosial islahat paketi təsdiq edib.**

# Bir ildə cəmi iki "Paket" və Azərbaycan əhalisinin tən yarısı yeni himayə altına alındı

Birinci paket 3 milyon vətəndaşın maaş, pensiya, sosial müavinətlərinin artırılması, mühüm sosial məsələlərin həllinə 1.6 milyard manatın yönəldilmisini nəzərdə tutub və icra olunub.

İkinci paketin icrası ilə bağlı hazırlıq işləri tamamlanıb, sentyabrın 1-dən minimal əməkhaqqının 250 manata çatdırılması, əlavə olaraq 400 min nəfərin maaşının 20-50 faiz artırılması, 750 min pensiyaçıya verilən vəsaitin oktyabrın 1-dən yüksəldilməsi nəzərdə tutulub.

Hər iki paketin ümumi məbləği cari il üçün 2.3 milyard manat, gələn il üçün isə daha 3 milyard manat olmaqla, ümumilikdə, 4.2 milyon vətəndaşın əhatə edilməsi və 5.2 milyard manatın sərf olunması nəzərdə tutulur.

Sosial sahə üzrə görülən işlər bir tərəfdən Azərbaycan dövlətinin gücünü, digər tərəfdən də Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasətin effektivliyini, reallaşdırılan islahatların yüksək praktiki nəticələr verdiyini göstərir.

Təkcə onu demək kifayətdir ki, Azərbaycanda minimal pensiya 72 faiz artdığına görə ölkəmiz minimal pensiya üzrə alıcılıq qabiliyyətinə görə MDB-də birinci olacaq. Minimal əməkhaqqının 250 manata çatdırılmasından sonra isə Azərbaycan bu göstərici üzrə MDB-də ikinci sırada qərarlaşıb. Göründüyü kimi, cənab Prezidentin təqdim etdiyi iki sosial paket, demək olar ki, ölkə əhalisinin yarısı qədər insana şamil olunacaq. Bu göstəricini necə dəyərləndirmək olar?

İqtisadçı Elşən Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, həyata keçirilən uğurlu siyasət kursu və müxtəlif sahələri əhatə edən islahatlar, sistemli və ardıcıl şəkildə reallaşdırılan layihələr Azərbaycanın inkişafına bir qədər də təkan verir, onu dünyanın aparıcı ölkələri ilə eyni sırada qərarlaşdırır: "Bu reallığı təkcə biz deyil, eləcə də beynəlxalq təşkilat və qurumlar da təsdiqləyir, ölkəmizin inkişaf dinamikasını təqdir edirlər.

Azərbaycanda əksər sahələrdə qeydə alınan inkişaf və tərəqqini, onun aydın mənzərəsini rəsmi statistik rəqəmlərdən də aydın görə bilirik. Ölkə başçısı tərəfindən aparılan sosial-iqtisadi siyasətin qayəsində Azərbaycan vətəndaşının, onun sosial təminatının və rifahının dayandığını özündə növbəti dəfə bariz şəkildə ehtiva edən bu qərarlar, ümumilikdə, ölkə əhalisinin yarısına qədər sayda olan insanı əhatə etməklə, həm dövlət orqanlarında, həm də özəl sektorda çalışan şəxslərin maddi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq. İmzalanan sərəncamlar minimum aylıq əməkhaqqının 180 manatdan 250 manata çatdırılmasını, dövlət qulluqçularının aylıq vəzifə maaşlarının 50 faiz, hərbi və hüquq-mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqlarının 40 faiz, dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşlarının orta hesabla 20 faiz, dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşlarının orta hesabla 40 faiz artırılmasını nəzərdə tutur".



İqtisadçının sözlərinə görə, bu ilin əvvəlindən etibarən Prezident İlham Əliyev tərəfindən qəbul edilən qərarlar qlobal iqtisadiyyatda baş verən neqativ meyllərin ölkə əhalisinin sosial təminatına mənfi təsirini minimallaşdırmağa imkan vermişdisə, hazırkı sərəncamlar isə əhalinin gəlirlərinin artmasına, yığım imkanlarının genişlənməsinə şərait yaradacaq: "Əməkhaqlarının əhəmiyyətli artımı əhalinin alıcılıq qabiliyyətinə müsbət təsir etməklə, iqtisadi aktivliyin daha da artmasına və iqtisadiyyatın digər sferalarının inkişafına da öz töhfəsini verəcək".

*Məhəmmədəli QƏRİBLİ*

**"Azərbaycanda dollarlaşma aşağı düşməyə başlayıb". Məlum olduğu kimi, bunu Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov qeyd edib.**

# Dövlət müşavirəsi Azərbaycanda dollarlaşma səviyyəsinə qiymət verdi...

***Fikrət Yusifov:** "Bütövlükdə, ölkənin bank-maliyyə sisteminin möhkəmləndirilməsi ilə bağlı görülən tədbirlər nəticəsində vəziyyət normal məcraya düşüb"*



O, əmanətlərin dollarlaşmasının 2016-cı ildə pik nöqtədəki 85 faizdən 56 faizə düşdüyünü deyib: "Dedollarlaşma, deməli, bizim o böhran dövründə dollarlaşma baş verdi. Bu gün biz görürük ki, dollarlaşma aşağı düşməyə başlayıb. Fiziki şəxslərin əmanətlərinin dollarlaşması 2016-cı ildə pik nöqtədəki 85 faizdən 56 faizə, kreditlərin dollarlaşması müvafiq olaraq 52 faizdən 35 faizə qədər aşağı düşüb". Görünən odur ki, iqtisadiyyatda müşahidə edilən müsbət dinamika bank sektorunda bəzi müsbət meyllərin özünü göstərməsinə şərait yaradıb. Bu səbəbdən banklarda müəyyən müsbət göstəricilər qeydə alınmağa başlayıb. Artıq əhalinin əmanətləri artır və onun strukturunda dollarlaşma səviyyəsi azalır. Bununla belə, kreditləşdirmə səviyyəsi genişlənir, aktivlərin bərpası meyli nəzərə çarpır. Ümumilikdə, iqtisadiyyatda müşahidə edilən pozitiv məqamlar fonunda ekspertlər əmanətlərin və kreditlərin dollarlaşma səviyyəsinin aşağı düşməsini necə dəyərləndirir?

Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifov buna bir neçə aspektdən yanaşdı: "Son illər ərzində Azərbaycanın milli valyutası olan manatın sabitliyinin dayanıqlı olması iqtisadiyyatda baş verən müsbət proseslərlə bağlıdır. Eyni zamanda, hökumətin manatın məzənnəsinin sabit qalması ilə bağlı gördüyü tədbirlər və ümumiyyətlə maliyyə sabitliyinin təmin edilməsi ilə bağlı görülən işlər nəticəsində bu mümkün olub. Məlum olduğu kimi, bu tədbirlər çərçivəsində əmanətlər 3 il sığortalandı. Daha sonra bu müddət uzadıldı. Bütün bunların hamısı manata inamın artması baxımından mühüm əhəmiyyət kəsb edir. Bununla belə, bu ilin fevralında Prezident İlham Əliyevin problemli kreditlərlə bağlı imzaladığı məlum fərman, 2015-ci ildə manatın məzənnəsi ilə bağlı baş verən devalvasiya ilə əlaqədar banklara dəymiş ziyanın ödənilməsi ilə bağlı görülən işlər bu işdə öz müsbət rolunu oynayıb. Bütövlükdə, ölkənin bank-maliyyə sisteminin möhkəmləndirilməsi, sabitləşdirilməsi istiqamətində dövlətin atdığı addımlar və görülən tədbirlər nəticəsində vəziyyət normal məcraya düşüb. Necə deyərlər, belə müsbət nəticə əldə olunub. Manata inam artıb. Əmanətlərin strukturunda ciddi dəyişikliklər baş verdi və dollarla olan əmanətlər manatla əvəzləndi. Həmçinin, manatla verilən kreditlərin həcmi artdı. Bütün bunlar görülən tədbirlərin nəticəsidir ".

*"Əmanətlərin strukturunda ciddi dəyişikliklər baş verdi və dollarla olan əmanətlər manatla əvəzləndi"*

***Vidadi ORDAHALLI***

**Ermənistanda vəziyyətin hər gün gərginləşməsi onu idarə edən hakimiyyəti çarəsiz vəziyyətə salıb. Təsadüfi deyil ki, bu vəziyyətdən çıxmaq üçün hətta Baş nazir səviyyəsində yeni yalanlar uydurulur. Baş nazir Nikol Paşinyan deyib ki, Ermənistanın vəziyyəti barədə gizli bir hesabatla bağlı ermənilərlə fikir mübadiləsi aparmaq istəyir.**



# Ermənistan barədə 2014-də hazırlandığı deyilən gizli hesabat - Paşinyanın yeni oyunu barədə şübhələr baş qaldırıb...

## ***Hatəm Cabbarlı:*** *"Hətta vəziyyət o yerə gəlib ki, nazirlər görmək istədikləri işlərlə bağlı ABŞ və Rusiya səfirləri ilə müzakirələr aparırlar"*

O bildirib ki, hesabat Ermənistanın dərin institusional böhranda olduğunu və bu vəziyyətin bu gün də davam etdiyini göstərir. Paşinyana görə, hesabat o dövrkü hakimiyyətin tapşırığı ilə 2014-cü ildə tərtib edilib. Hesabat sübut edir ki, ölkədə bütün idarəçilik korrupsiyanın üstündə qurulub və korrupsiya mexanizminin qarşısı alındığı üçün bu gün ölkənin bütün idarəçilik sistemi iflic olub.

Maraqlı suallar ortaya çıxıb. Paşinyan deyib ki, bu hesabat barədə ilk məlumatı aprel inqilabından sonra alıb. Bəs məlumatı indi niyə verir? Sualı Ermənistanda da verirlər. Paşinyan izah verib ki, hər detalı öyrənmək üçün müəyyən bir müddətin keçməsini gözləyib. Ancaq müxalif dairələr Paşinyana inanmır və şübhəli müzakirələr aparırlar.

Faktiki olaraq görünür ki, Paşinyan xalqa verdiyi vədləri yerinə yetirə bilmir. Ölkəni böhrandan çıxara bilməməsinin səbəbini daha "dərin" köklərdə axtarmağa başlayıb və xalqa demək istəyir ki, bu dərin böhran hələ 2014-cü ildə hazırlanan hesabatda öz əksini tapıb. Bir növ, özünü sığortalamaq və xalqı yalan vədlərlə aldatmaq kimi niyyət güdülür. Belə bir hesabata işarə edib, xalqla onu müzakirə etməyin zəruriliyini qabartmaqla Paşinyan daha hansı məqsədləri güdə bilər?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı qəzetimizə bildirdi ki, 2014-cü ildəki hesabatla bağlı vəziyyəti dəyərləndirmədən əvvəl Ermənistanın son 28 illik müstəqillik tarixinə diqqət etmək lazımdır: "Bu müddət ərzində Ermənistanın tam formalaşmamış dövlət halında olduğunu söyləmək mümkündür. Eks-prezident Röbert Köçəryanın müsahibəsinə fikir vermək lazımdır. Nədənsə, o, Ermənistanın dərdləri barədə türmədən danışmağa üstünlük verir. Niyə o, türmədən danışır, niyə müxalifətdə olanda və azadlıqda gəzəndə bunları danışmırdı? Bunun özü də Ermənistanda dövlətçilik ənənələrinin oturuşmadığına bir sübutdur. Nikol Paşinyanın dediyi raport ola bilər ki, hökumətdə var. 2014-cü ildə Sarkisyana yazılan həmin məruzə ola bilsin ki, Ermənistanın real vəziyyətini özündə əks etdirib. Sarkisyan ola bilsin ki, həmin məruzəni gizlədib. Paşinyanın hakimiyyətə gəlməsindən sonra ölkənin heç bir problemi köklü şəkildə həll edilməyib. Əksinə, həmin problemlər daha da dərinləşib. Paşinyan hakimiyyətə gələnə qədər dövlətin heç bir idarəetmə mexanizmində vəzifə tuta bilməyib. Belə bir adam bir "məxməri inqilab" nəticəsində hakimiyyəti ələ ala bildi. Bu cür naşı adam dövlətin mərhəm sirlərinə də bələd olmağa başladı. Ola bilər ki, həmin məruzənin olması da deyilən sirlərdən biridir. Amma Paşinyan bunu bəyəm indi bilir? Axı onun hakimiyyətə gəldiyi şüarlar da elə bu məzmunda idi. Nikol Paşinyan üzərinə öhdəlik götürdü ki, bu biabırçılığı düzəldəcək. Belə sənədlər adətən dərhal açıqlanmır. Paşinyan gözləyib ki, özünə lazım olanda ondan istifadə etsin. Bu heç də xalqa olan sevgidən irəli gəlmir. Burada söhbət həmin sənədlə öz xeyrinə manipulyasiya etməkdən gedir. O görür ki, sümükləşmiş problemləri həll etmək iqtidarında deyil. Buna görə də günahı kiminsə üzərinə atmaq lazımdır. Bu gedişlə də fikirləşir ki, xalqın başı bir qədər də qarışacaq. Sadəcə, sənədə ciddi mənbə kimi istinad edəcək. Son bir neçə ayda baş verənlərdən görünür ki, Paşinyan hətta hakimiyyətə nəzarəti tam ələ ala bilmir. Hətta vəziyyət o yerə gəlib ki, nazirlər görmək istədikləri işlərlə bağlı ABŞ və Rusiya səfirləri ilə müzakirələr aparırlar. Belə vasitəyə əl atması onu deməyə əsas verir ki, Paşinyan tam tükənib".

*"Belə vasitəyə əl atması onu deməyə əsas verir ki, Paşinyan tam tükənib"*

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycan hakimiyyətinə qarşı radikal mövqedə dayanan partiyalardan biri də Əli Kərimlinin rəhbəri olduğu AXCP-dir. Bu partiya uzun illərdir hakimiyyətə qarşı antoqonist mövqe tutmaqla, onun əleyhinə təbliğat aparır. Müxalifətçilik missiyası üçün qənaətbəxş fəaliyyət sayıla bilər. Ancaq gəlin qəbul edək ki, hakimiyyətdən şəffaflıq tələb edən qurum və ya funksionerlərin də fəaliyyəti təmiz olmalıdır. Onlar bununla bağlı hesabat verməkdən çəkinməməlidirlər.**



# 1993-cü ildə Elçibəy AXC-nin oğurlanan pul fondu və Əli Kərimliyə uzanan şübhələr...

## ***Rəfail Becanov:*** *"Biz bu hadisələrin canlı şahidləriyik"*

AXCP-nin hakimiyyəti sərt tənqid etdiyi mövzulardan biri də korrupsiyadır. Onda isə hakimiyyət nümayəndələri, hətta müstəqil jurnalistlər belə, Əli Kərimlidən hesabat istəyə bilərlər ki, sizin özünüz heç yerdə işləmirsiniz, amma uzun illərdir cangüdən, sürücü xidmətindən istifadə edirsiniz. Heç bir elmi fəaliyyətlə məşğul olub qonorar ala bilməyən, fiziki əməklə məşğul olub pul qazanmayan bir adam nə ilə dolanır? Fikir vermişik ki, müxalif partiya və şəxsən Əli Kərimlinin özü bu sualdan maksimum yayınmağa çalışır. Hətta belə sualı verən jurnalist və ya blogeri acılamaqdan belə çəkinmir. Ancaq zaman-zaman Əli Kərimli ilə bağlı belə ittihamlar, araşdırmalar mediaya yol tapıb. Hətta ona məxsus olduğu iddia edilən bəzi mülklərin fotoları da paylaşılıb, övladlarının Avropadakı bahalı institutlarda təhsil aldığı barədə məlumat verilib.

İndi isə mediada maraqlı məlumatlar tirajlanmağa başlayıb. İddia olunur ki, Əli Kərimli bir vaxtlar partiyanın ehtiyat fondundan yoxa çıxan qızıl və külli miqdarda pulu mənimsəyib, özünə yaxın qohumları vasitəsilə Şimali Qafqazda böyük biznes qurub. Söhbət 1993-cü ildə partiyanın yoxa çıxan külli miqdarda vəsaitindən gedir. Bu, Elçibəyin Bakıda olmadığı dönəmdə Əli Kərimlinin AXCP-yə rəhbərlik etdiyi və hakimiyyətlə yaxından təmasda olduğu zamana təsadüf edir. AXCP-nin gizli maliyyə fondunun yoxa çıxması ilə bağlı səslənən ittihamları nə dərəcədə əsaslı saymaq olar?

Həmin dönəmdə AXCP-nin mərkəzi qərargahında çalışmış Rəfail Becanov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu söhbətlər tam reallığı əks etdirir: "Mən həmin vaxtlarda AXCP-nin İnformasiya Mərkəzinin əməkdaşı olmuşam. Biz Əli Kərimli Bakıya qayıdıb partiyanın başına keçənə kimi normal, şəffaf qaydada cədvələ qol çəkib əmək-haqqı alırdıq. Birdən-birə əməkhaqları kəsildi. Bunu maliyyə çatışmazlığı ilə izah etdilər. Amma həmin vaxt biz bilirdik ki, AXCP-nin kifayət qədər maliyyə resursları var. Söhbət kulli miqdarda vəsaitin yoxa çıxmasından gedirdi. 100-lərlə maaş alan əməkdaş yarıac, yarıtox işləməyə məhkum edildi. Həmin vaxt aparılan araşdırmalardan məlum oldu ki, vəsait Əli Kərimlinin şəxsi biznesinə yönəldilib. Ona yaxın adamlar tərəfindən vəsait ölkədən çıxarılaraq Rusiya ərazisində biznesə yönəldilmişdi. Hətta bu prosesdə iştirak edənlərin adı da məlumdur. Zamanında bu barədə mediada yazılar, araşdırmalar da dərc edilib. Həmin hadisədən sonra partiyada ciddi maliyyə böhranı yarandı. Əslində, bu, partiyanın bütün qollarını əhatə etmirdi. Əli Kərimlinin özünə yaxın olan "Yurd" qurumu yaxşı maliyyə alırdı. Onların 2000-ci ilə kimi heç bir maliyyə korluğu olmadı. Həm hakimiyyətlə sıx təmasda idilər, həm xaricə çıxarılan və biznesə yatırılan pullardan yaxşı vəsait götürürdülər, eyni zamanda, xarici fondlardan gələn vəsaitlər həmin qrup tərəfindən həzm edilirdi.

Bununla da, faktiki olaraq, AXCP-nin parçalanmasının əsası qoyuldu. Sözdə bütöv olsaq da, AXCP daxilində "Yurd" və ona tabe olmayan qanad fəaliyyət göstərirdi. İndi də həmin biznes qalır. Bəlkə də bir qədər də inkişaf edib. Fakitiki olaraq bəzi adamlar radikal müxalifət adı ilə siyasətdən də böyük qazanc götürüb imkanlı şəxslərə çevriliblər. Biz bu hadisələrin canlı şahidləriyik. Heç kim buna şübhə etməsin. AXCP-nin büdcəsi Əli Kərimli tərəfindən həqiqətən oğurlanıb".

*"AXCP-nin büdcəsi Əli Kərimli tərəfindən həqiqətən oğurlanıb"*

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycan qazının Avropa bazarlarına daxil olmasına az bir müddət qaldığı vaxtda ölkəmizlə enerji sferasında əməkdaşlıq etmək istəyən Qərb dövlətlərinin sayının da artması müşahidə olunur. Belə görünür ki, bu gedişlə Azərbaycandan qaz alan Avropa ölkələrinin sayında əhəmiyyətli dərəcədə artım olacaq. "Cənub Qaz Dəhlizi"nin Balkan və Mərkəzi Avropada genişlənməsi istiqamətində atılan addımlar da bunu sübut edir.**

# Azərbaycan qazına müştəri düşən Avropa ölkələri sıraya düzülür...

Qeyd edək ki, Rumıniyanın Energetika Nazirliyi, "Transqaz" şirkəti və "Cənub Qaz Dəhlizi" məşvərət şurası "Cənub Qaz Dəhlizi"nin Balkan və Mərkəzi Avropada genişlənməsi mərhələlərinə dair Anlaşma Memorandumunu imzalayıb. Buna müvafiq olaraq Rumıniya-Bolqarıstan interkonnektoru və Bolqarıstan-Rumıniya-Macarıstan-Avstriya (BRUA) boru kəməri infrastrukturunun yaradılması nəzərdə tutulur. Rumıniya-Bolqarıstan interkonnektoru, eləcə də BRUA layihəsi Xəzər və Aralıq dənizlərindən, Yaxın Şərq və ya Mərkəzi Asiyadan təbii qaz mənbələrinin Mərkəzi və Qərbi Avropa bazarlarına inteqrasiyasını təmin edəcək. Tikintinin başa çatmasından sonra BRUA Macarıstana ildə 4,4 milyard kubmetr, Bolqarıstana 1,5 milyard kubmetr qaz nəql etməyə imkan verəcək. Bu hal bir tərəfdən Rumıniyanın və Avropanın Xəzərin qaz ehtiyatlarına çıxışını təmin edir, digər tərəfdən isə BRUA-nı Mərkəzi Asiyanı Avropa ilə əlaqələndirən nəqliyyat sisteminə bağlayır. Bununla Xəzər qazı alan Avropa ölkələrinin sayı da artmış olur.

Bütün bunlar Azərbaycan qazının Avropaya nəqlində son halqa sayılan "Transadriatik" (TAP) boru kəmərinin inşasının yekunlaşmaq üzrə olduğu bir vaxtda baş verir. Bu kəmər üzrə işlərin artıq 90 faizi yekunlaşıb. Layihə üzrə işlər qrafikə uyğun olaraq davam etdirilir. Bununla "Cənub Qaz Dəhlizi" tam hazır olacaq. Xatırladaq ki, dörd seqmenti özündə birləşdirən və 40 milyard dollar investisiya qoyuluşuna başa gələn "Cənub Qaz Dəhlizi" "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG), TANAP və TAP layihələrindən ibarətdir. Bu layihənin icrasında Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya iştirak edir. Növbəti mərhələdə "Cənub Qaz Dəhlizi"nə daha 3 Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro qoşulacaq. Rumıniya da layihəyə qoşulmaq üçün aktiv hazırlığa start verib və bu fonda digər Avropa ölkələri də analoji maraq ifadə edir. Çünki Qərb üçün "Cənub Qaz Dəhlizi" enerji resurslarının şaxələndirilməsi işində mühüm əhəmiyyətə malikdir. Bununla Avropa yeni mənbədən, təsdiq edilmiş ehtiyatları 2,6 trilyon kubmetr olan Azərbaycandan təbii qaz alacaq. Qeyd edək ki, dünyanın ən böyük qaz yataqlarından biri olan "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi məhz "Cənub Qaz Dəhlizi"nin əsas qaz mənbəyi olacaq. Artıq TANAP boru kəməri bu il iyulun 1-dən Azərbaycan təbii qazının Avropaya nəql edilməsi üçün hazır vəziyyətə gətirilib. Kəmərin mövcud ötürücülük qabiliyyəti hazırda 16 milyard kubmetrdir və sonradan bu həcmin 31 milyard kubmetrədək artırılması planlaşdırılır. "Cənub Qaz Dəhlizi"nin sonuncu halqası və Avropa hissəsi olan TAP-la TANAP bir-birinə fiziki olaraq birləşdirilib. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur. Bu kəmər Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün geniş imkanlar yaradır. TAP-la Avropaya ilk qazın verilməsi gələn ilə planlaşdırılır. TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına da başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır. İndiki də TAP Bolqarıstanın qaza olan tələbatının 40 faizini, Yunanıstanın tələbatının üçdə birini, İtaliyanın idxalının isə 12 faizini təmin edəcək. Amma yuxarıda qeyd olunduğu kimi, onun imkanlarının genişləndirilməsi nəzərdə tutulur və bu kəmər vasitəsilə Azərbaycan qazı almaq istəyən Avropa ölkələrinin də sayı artır.

Digər tərəfdən "Cənub Qaz Dəhlizi" vasitəsilə başqa ölkələrin, ilk mərhələdə isə türkmən qazının da daşınması gözlənilir. Xatırladaq ki, sözügedən məsələ elə bu günlərdə Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədov və Azərbaycan baş naziri Novruz Məmmədov arasında yenidən müzakirə olunub. Müzakirələr zamanı Türkmənistan və Azərbaycanın Avrasiya qitəsi ölkələrinə uzunmüddətli enerji tədarükünü təşkil etmək üçün optimal şərait yaradan neft və qaz ehtiyatlarına malik olması xüsusi diqqət mərkəzində yer alıb. Türkmən qazının Azərbaycan vasitəsilə dünya bazarlarına çıxarılmasının hər iki ölkənin marağı çərçivəsində olması da ayrıca qeyd edilib. Elə iki ölkə üçün hazırda Xəzərdəki ən mühüm layihə "Transxəzər" boru kəməridir. Türkmən qazı həmin boru ilə Azərbaycana gətirilməli, buradan isə "Cənub Qaz Dəhlizi" ilə Avropaya



çatdırılmalıdır. Layihələndirilmiş boru kəmərinin gücü ildə 30 milyard kubmetr təbii qaz təşkil edir. Bu boru kəməri ilə Avropaya ildə 10-30 milyard kubmetr Türkmənistan qazı çatdırılacaq. Boru kəmərinin təxmin edilən xərci 5 milyard dollar, nəzərdə tutulan uzunluğu 300 kilometrdir. Artıq ABŞ və Avropa bu xərci ödəməyə hazır olduqlarını bəyan edir. Elə bu fonda yaxın tezlikdə "Transxəzər"in reallaşdırılması istisna olunmur. Bu isə o deməkdir ki, "Cənub Qaz Dəhlizi" ilə Avropaya daha böyük həcmdə qaz axacaq. Məhz bu səbəbdəndir ki, hazırda "Cənub Qaz Dəhlizi"nə qoşulmaq istəyən Avropa ölkələrinin də sayı artır.

Digər tərəfdən araşdırmalar göstərir ki, Avropanın Rusiyadan təbii qaz idxalının payı 2025-ci ilədək hazırkı 30 faizdən 35 faizə çatacaq. 2030-cu illərin ortalarında isə Avropanın bütün qaz istehlakının 40 faizinin Rusiyadan gələcəyi gözlənir. Beləliklə, Avropa İttifaqının Rusiya qazından asılılığı azalmaqdansa, artan xətt üzrə qalxa bilər. Məhz bu səbəbdən Rusiyanın da "Transxəzər"ə hansısa ciddi maneə yaratması gözlənilmir. Çünki Avropada qaz istehlakı durmadan artır və Rusiya bunu təkbaşına ödəmək iqtidarında deyil.

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan diplomatiyasının əldə etdiyi nəticələr Ermənistanda şok effekti yaradır

**İşğalçı Ermənistanın bir dövlət kimi mövcudluğunun kökündə dayanan əsas amillərdən birinin xaricdən edilən yardımlar olması heç kimə sirr deyil. Bu yardımlar dayandığı təqdirdə Ermənistanın sosial-iqtisadi çöküşünün sürətlənməsi və onun bir dövlət olaraq varlığına son qoyulmasının qaçılmaz olması ermənilərin özləri tərəfindən belə etiraf edilən həqiqətlər sırasında yer alır.**

Məhz bundan irəli gəlir ki, ABŞ-ın Ermənistana etdiyi yardımları azaltması və tədricən kəsmək istəməsi İrəvanda böyük təşvişə yol açıb.

Ümumiyyətlə, hadisələrin gedişi göstərir ki, ABŞ hökumətinin Ermənistanla münasibətlərdə, o cümlədən də Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələdə tutduğu mövqe İrəvan üçün əsl şok effekti yaratmaqdadır. Xatırladaq ki, hələ ötən il regiona səfəri zamanı ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton İrəvana mesaj vermişdi ki, işğalçılıq siyasətini yürütdükcə Ermənistan tənəzzülə uğrayacaq. Boltonun bu siyasətindən sonra ABŞ Ermənistanla bağlı problemləri qabartmağa başladı. Düzdür, Vaşinqtonun son dövrlər Ermənistana kəskin mənfi münasibəti təkcə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı deyil. Şübhəsiz ki, Azərbaycan diplomatiyasının yeritdiyi siyasət burada öz rolunu oynayır və rəsmi Bakı Ermənistanın işğalla region üçün yaratdığı böyük təhdidi dünyaya sübut edib. Eyni zamanda, Ağ Evin Ermənistana münasibətinin pisləşməsində Rusiya faktorunun da rolu az deyil. Yayılan məlumatlara görə, Ermənistana ayrılan yardımların bir qismi də işğalçı ölkədəki Rusiya bazasının saxlanmasına gedir. Bu isə indi Vaşinqtonda xoş qarşılanmır. Ermənistan ordusunun Suriyadakı hərbi əməliyyatlarda iştirakı Ağ Evdə müsbət qarşılanmayıb və rəsmi İrəvana qarşı inamsızlıq yaranıb. Məhz bu səbəblərdən dolayı Ermənistanın yüksək vəzifəli şəxslərinin ABŞ-a səfəri zamanı onları artıq Ağ Evdə qəbul etmirlər. Bu üzdən Vaşinqton-İrəvan münasibətləri sürətlə tənəzzülə uğrayır. Bu fonda da işğalçı ölkəyə edilən yardımların həcmi sürətlə azalır. Yaranmış durumda məsələ o yerə çatıb ki, İrəvanın təşəbbüsü ilə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan ABŞ-ın Ermənistandakı səfiri Lin Treysi ilə görüşüb. Məlumata görə, görüş zamanı Qriqoryan xüsusi olaraq ABŞ-ın ölkəsinə və işğal edilmiş Azərbaycan ərazilərindəki separatçı rejimə humanitar yardımının davam etdirilməsinin vacibliyindən bəhs edib. O, həmçinin, Treysiyə təhlükəsizlik, siyasət sferasındakı reformları təqdim edib. Amma ABŞ tərəfi təqdim edilənləri yetərli saymayıb. Erməni ekspert Haqik Hambaryan qeyd edir ki, bununla da ABŞ bir daha Paşinyanın yürütdüyü xarici siyasətə öz narazılıqlarını ifadə edir: "Tramp administrasiyasının siyasəti ondan ibarətdir ki, kim ABŞ-ı dəstəkləyirsə, o dövlət daha çox yardım alır, kim ABŞ-ın xarici siyasətini bölüşmürsə, həmin dövlət yardım almır. Buna görə də Ermənistan böyük ümidlər bəsləyə bilməz. ABŞ-da güclü erməni diasporu olsa da, bilirik ki, Ermənistan KTMT-nin və AİƏT-in üzvüdür. Ermənistan ərazisində 102-ci rus hərbi bazası yerləşir. Onlar hazırkı vəziyyətdə Rusiya-ABŞ münasibətlərinin hansı səviyyədə olduğunu yaxşı bilirlər. Bəli, ABŞ Ermənistanın siyasi davranışlarına səbrlə yanaşır. Lakin bununla yanaşı, ABŞ-ın Ermənistana böyük həcmdə yardımlar ayıra biləcəyini birmənalı şəkildə deyə bilmərəm". O qeyd edib ki, Qarabağdakı qondarma quruma ayrılan maliyyə yardımının dayandırılması çox təəccüblüdür: "2 ay əvvəl qəbul olunan qanun layihəsinə görə, ABŞ-ın Qarabağa birbaşa maliyyə yardımı etməsi davam etməli idi, lakin bu dayandırılır. Bu yardım hər il 5 milyon ABŞ dolları təşkil edirdi. Layihə USAID vasitəsilə həyata keçirilir. Burada məsələ vəsaitin məbləği deyil, onun ələməti və ismarıclarıdır. Biz indi Qarabağa ayrılan yardımın dayandırılması davranışı ilə üz-üzə qalmışıq. Bu, Tramp administrasiyasının Nikol Paşinyan hakimiyyətinin siyasətinə mesajı da ola bilər. Bununla da ABŞ-ın dövlət katibliyi və Ağ Ev bir daha Paşinyanın yürütdüyü xarici siyasətə öz narazılıqlarını ifadə edirlər. Yaxud sadəcə olaraq, bu davranış tərzini bizim xarici siyasətdə növbəti nöqsanımız kimi nəzərdən keçirmək olar".

Almaniyalı siyasi analitik Syuzan Styuart isə qeyd edir ki, maliyyə yardımının azaldılmasını Donald Trampın xarici siyasətinin prioritetləri və layihələri çərçivəsində dəyərləndirmək lazımdır: "Bununla yanaşı bu günlərdə məlum olub ki, ABŞ Azərbaycana ayrılan yardımı kəskin şəkildə artırır. Bu, Ermənistana ayrılan yardımla müqayisəedilməz dərəcədə çoxdur. ABŞ Prezident Administrasiyasının indi təşəbbüs göstərdiyi və müxtəlif istiqamətdə həyata keçirdiyi layihələr son prezident seçkilərindəki təbliğat zamanı məlum idi. Bunun Ermənistana xüsusi ismarıc olduğunu deyə bilmərəm, lakin onu deyə bilərəm ki, bu məsələ ilə məşğul olmağa məcbur edən bir siqnaldır". Xatırladaq ki, erməni politoloq Suren Sarkisyan da baş verənlərin ölkəsi üçün böyük problemlər yaratdığını bəyan edib. ABŞ araşdırmaları erməni mərkəzinin təsisçisi olan Suren Sarkisyan öz "Facebook" səhifəsində Azərbaycana ABŞ-ın hərbi yardımını əsk etdirən infoqrafika yerləşdirib. Bu infoqrafikaya diqqət yetirərkən məlum olur ki, 2001-ci ildə ABŞ-ın Azərbaycana ayırdığı 3.6 mlyon dollardan başlayan yardım 2019-cu ildə 42.9 milyon dollara çatıb. Həmin infoqrafikaya əsasən, ABŞ-ın Azərbaycana hərbi yardımının həcmi 2008-ci ildə 48.9 milyon dollar, 2018-ci ildə isə 59.6 milyon dollar təşkil edib. Beləliklə, Ermənistanda baş tutan məxməri hakimiyyət dəyişikliyi illərində ABŞ tərəfindən Azərbaycana ayrılan yardımın ən yüksək həddi baş verib. Sarkisyanın sözlərindən belə məlum olur ki, Birləşmiş Ştatlar üçün bölgədə Azərbaycanın xüsusi əhəmiyyəti var. Bəlkə də bu, Azərbaycanın Əfqanıstan məsələsində silah və sursat daşınması işində, aviabazalardan faydalanmaq da daxil olmaqla, ABŞ-a göstərdiyi logistik yardımı ilə əlaqədardır. Bu addımların ABŞ üçün xüsusi əhəmiyyəti var. Ona görə də, ABŞ-ın Azərbaycana xüsusi diqqət ayırması təəccüblü deyil.

O qeyd edib ki, hazırda açıq mənbələrdən məlumat əldə edilməsinə imkan verən Azərbaycana ayrılan hərbi yardım büdcəsi ilə 2019-cu il üçün, 2017-ci ilin büdcəsi ilə 2018-ci il üçün nəzərdə tutularaq təsdiq edilib. Ona görə də balanslaşdırmaq imkanı və perspektivi yoxdur, çünki ABŞ öz maraqlarını rəhbər tutur: "Azərbaycan ABŞ üçün strateji əhəmiyyəti olan ölkədir". ABŞ tərəfindən Ermənistana hansı qaydada yardım ediləcəyinə dair suala cavabında isə Sarkisyan xarici yardım xəttilə 2020-ci ildə Ermənistana 6 milyon 750 min dollar veriləcəyini əlavə edib: "Təhlükəsizliyə yardım xətti üzrə isə Azərbaycana verilən yardım son iki ildə 100 milyon dollar təşkil etsə də, Ermənistana nəzərdə tutulan yardım həcmi "0" təşkil edir". Sarkisyan iddia edir ki, heç vaxt Ermənistana ayrılan yardımın həcmi böyük olmayıb: "Lakin qeyd edildiyi kimi, son iki ildə Azərbaycana ayrılan hərbi yardım 100 milyon dollar təşkil etsə də, Ermənistana sadəcə olaraq hərbi yardım ayrılmayıb. Son illərdə Ermənistana ayrılan yardım 0 dollar təşkil edib. Bunun əvəzində Azərbaycan, qeyd etdiyim kimi, 100 milyon dollar hərbi yardım alıb". Sarkisyan hesab edir ki, belə yanaşma ABŞ-ın Qarabağ məsələsinə münasibətini də sərgiləyir və Ermənistanı getdikcə daha çətin vəziyyətə salır.

"1in.am" portalı da məsələyə eyni prizmadan yanaşaraq, baş verənlərin Ermənistan üçün ciddi problemlərə yol açdığını yazır. Bildirilir ki, son illərdə ayrılan sabit yardımın qaydalarının pozulma səbəblərini araşdırmaq Ermənistan üçün əsas məqamlardan biri olmalıdır: "Bu məsələyə tamamilə Ermənistandakı hakimiyyətə qarşı münasibət, yaxud hakimiyyətin ABŞ tərəfi ilə apardığı işin nəticəsi olaraq baxmaq daha yaxşı olar. Nəhayət, ABŞ tərəfinin yardım siyasəti yalnız erməni lobbisinin fəaliyyəti və ya Ermənistana olan məhəbbət hesabına əmələ gəlməyib. Şübhəsiz ki, məsələ daha çox bölgə siyasəti miqyası və motivləri, hazırda isə son illərdəki maliyyələşmə sabitliyinin pozulması motivləri ilə daha əhatəlidir. Bu amillər Ermənistan və Qarabağdakı rejimin diqqət mərkəzində və aparılan işin mövzusu olmalıdır. Lakin bu, həddindən artıq uyğun olmayan dəyərlərə görə Qarabağ məsələsində ABŞ siyasətinin ümumi mahiyyətini xarakterizə və ya təsvir edə bilməz. Əslində, ABŞ-ın məqsədi Ermənistanın sükanını öz tərəfinə döndərməkdən ibarətdir. Digər tərəfdən, ABŞ-dan daxil olan məlumat Qarabağda baş verən daxili reallıqlar, məlum misilsiz xarici maraqlar, xüsusən də "rus mandatı" baxımından nəzərdən keçirilə bilər. İrəvanın Moskvanın boyunduruğu altına girmək cəhdlərinə görə ABŞ "rus mandatı" ilə əlaqəli ehtimal edilən bir işarə ilə İrəvana "sarı vərəqə" göstərir. Bu hal Qarabağ məsələsinə münasibətdə də öz təsirlərini göstərəcək və bundan qazanan Azərbaycan olacaq". Beləliklə, bütün bu qeyd edilənlərdən bəlli olur ki, ABŞ-ın Ermənistana ayırdığı yardımın azalması və bunun Ermənistanın, eləcə də Qarabağ münaqişəsinin gələcəyinə mümkün təsirləri işğalçı ölkədə böyük bədbinlik yaradıb. Amma güclü erməni lobbisinin fəaliyyətinə rəğmən belə, ABŞ-ın mövqeyində dəyişikliyə nail olmaq da Ermənistanın gücü xaricindədir. ABŞ-dan gələn yardımların azalması ilə isə Ermənistanın sosial-iqtisadi vəziyyətinin daha da pisləşməsi qaçılmaz sayılır. Eyni zamanda bu hal düşmən ölkənin Qarabağ siyasətinə də mənfi istiqamətdə ciddi təsir göstərəcək. Çünki baş verənlər həm də ABŞ-ın Qarabağ məsələsinə görə Ermənistana təzyiqlərini artıracağını istsina etmir. Elə Azərbaycan diplomatiyası da məhz bu istiqamətdə fəaliyyət göstərir və real mənzərə diplomatiyamızın artıq konkret nəticələr əldə etdiyini də göstərir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# ABŞ və Türkiyə hərbçilərinin Suriyada üz-üzə gəliş təhlükəsi artır

**Rusiya raketlərinə görə münasibətləri xeyli pisləşən ABŞ və Türkiyə bu dəfə Suriya məsələsinə görə kəskin qarşıdurmaya getməkdədir. Söhbət ondan gedir ki, ABŞ Türkiyənin Suriyada yeni hərbi əməliyyatlara başlamaq niyyətinə razılıq vermir. Rusiya isə bu məsələdə hansısa problem görmür. Vaşinqtonda hesab edirlər ki, yaranmış vəziyyət Türkiyə və Rusiyanı yaxınlaşdıran növbəti amil olacaq.**

İndilikdə isə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, ölkəsi Şimali Suriyada PKK terror təşkilatının Suriya qolu sayılan PYD və YPG-yə qarşı hərbi əməliyyata başlayacaq. Ərdoğan Türkiyənin hərbi əməliyyata başlayacağı barədə ABŞ və Rusiyanı məlumatlandırdıqlarını bildirib: "Biz Suriyada Afrini, Cerablusu azad etdik, indi də Fərat çayının şərqində əməliyyat aparacağıq. Biz bu barədə ABŞ və Rusiyanı məlumatlandırdıq. Biz ölkəmizə hücumları sadəcə müşahidə edə bilmərik". Artıq ABŞ Dövlət Departamenti Türkiyə ordusunun Suriya ərazisində hərbi əməliyyat keçirmək planlarından narahatlığını ifadə edib. Departamentin rəsmi nümayəndəsi Morqan Ortaqus bildirib ki, Suriyanın şimal-şərqində belə birtərəfli hərbi hərəkətlər ciddi narahatlığa səbəb olur, xüsusilə ABŞ hərbi qulluqçularının yaxınlıqda ola biləcəyi zaman: "Biz bu cür addımları qəbuledilməz hesab edirik və Türkiyəni bizimlə birgə yanaşma üzərində işləməyə çağırırıq". Amma Türkiyə mövqeyindən geri çəkilmək niyyətində deyil. Türkiyənin "T24" portalı yazır ki, baş verənlər bu dəfə Suriyada ABŞ-Türkiyə toqquşmasını reallığa çevirə bilər: "Türkiyə və ABŞ-ın Suriyada Türkiyə ilə sərhəddə təhlükəsizlik zonası yaratmaq haqda danışıqları heləlik nəticə verməyib. Türkiyə tərəfi prezident Tayyib Ərdoğanın, xarici işlər naziri Mövlud Çavuşoğlunun ağzı ilə olduqca qəti və sərtcəsinə bildirib ki, anlaşma olmayacaqsa, Türkiyə Silahlı Qüvvələri Fəratdan şərqdə əməliyyat keçirəcək. Vurğulanıb ki, Türkiyənin "səbri qalmayıb". Prezident Ərdoğan qeyd edib: "Biz terror dəhlizini alt-üst etməyə qəti köklənmişik".




Vaşinqton bu zaman F-35 təyyarələrinin istismarını öyrənmək üçün ABŞ-da olan türk təyyarəçi və texniki mütəxəssislərini Türkiyəyə göndərməklə məşğuldur. Türkiyənin F-35 proqramından çıxdaş edildiyini bildirən ABŞ bu qərar çərşivəsində əməli fəaliyyətə keçib. Bu arada Ankara buna heç bir reaksiya verməyib. Türkiyə Milli Təhlükəsizlik Şurasının toplantısının yekunları üzrə dərc edilmiş bəyanatda F-35 layihəsi xatırlanmır, Suriyanın şimalında təhlükəsizlik zonası haqda isə prezident Ərdoğan və XİN başçısı Çavuşoğlunun bəyanatları ilə müqayisədə daha yumşaq ifadə işlədilib. Qeyd olunur ki, Türkiyə "sülh dəhlizi" yaratmağa səylər göstərəcək.

Bu qayda ilə Milli Təhlükəsizlik Şurasının iclasında Suriyanın şimalındakı dəhlizə daha bir tərif verilib: "sülh dəhlizi". Söhbət Suriya ərazisində Türkiyə sərhədindən o yana 30-40 km dərinlikdən gedir. Bu dəhlizin "dinc" olması üçün ora Türkiyə hərbçiləri nəzarət etməlidir. O biri yandan, Ankara ABŞ-ın dəstəklədiyi və Türkiyə-Suriya sərhədi boyunca Aralıq dənizinə uzanan PKK-nın nəzarətində olan bölgəni "terror dəhlizi" adlandırır. Bununla yanaşı, ABŞ-ın yaratmaq üçün təklif etdiyi beşyeddi kilometr dərinliyində təhlükəsizlik zonası Türkiyə ordusunun deyil, Böyük Britaniya, Fransa kimi Avropa dövlətlərinin və bəzi ərəb ölkələrinin nəzarət edəcəyi dəhlizi ifadə edir. Ankaranın tələblərilə yaxından-uzaqdan heç bir əlaqəsi olmayan bu dəhlizi Türkiyə ordusundan həm də PKK-YPG qorumalıdır.

Milli Təhlükəsizlik Şurasının yumşaq bəyanatına əsasən, Ankara və hər şeydən qabaq hərbi qanad hələlik gözləyir ki, qızıl orta tapılacaq. Ankara Vaşinqtonu Türkiyə ordusunun nəzarəti altında 30-40 km dərinlikdə sülh dəhlizi yaratmağa inandırsa və dilə tutsa, problem olmayacaq. Amma ABŞ buna qarşı direşə və Türkiyə ordusunun nəzarət etmədiyi beşyeddi kilometr dəhlizə israr etsə, Ankaranın buna razılaşmaq ehtimalı sıfıra bərabərdir. Bu halda Türkiyənin Fəratdan şərqdə əməliyyat keçirməkdən başqa variantı qalmayacaq - prezident Ərdoğan bu haqda tez-tez sərt şəkildə danışır. Əlbəttə, Ankara belə bir əməliyyat keçirərkən Rusiya, İran və dolayısı ilə Dəməşqlə hökmən təmasda olacaq.

Belə bir hərbi əməliyyatın gedişində ən böyük risq Türkiyə və Amerika hərbçiləri arasında hərbi toqquşma ehtimalıdır. NATO üzrə iki müttəfiqin hərbçilərinin döyüşə girməsi isə problemi çox ciddi böhrana çevirə bilər. ABŞ-ın Suriyanın şimalındakı fəaliyyəti aydın göstərir ki, Vaşinqton "Şimali İraq"a oxşar "Şimali Suriya" yaratmağa çalışır. Bu qurum Dəməşqin suverenliyindən qıraqda qalacaq, praktik olaraq müstəqil hərəkət edə bilər və PKK-YPG-"Demokratik Birlik" Partiyası (PYD) tərəfindən idarə olunacaq. Türkiyədən savayı ABŞ-ın bu planına qarşı çıxış edən daha iki ölkə var: İran və təbii ki, Suriya.

ABŞ Suriyanın şimalında öz planında israr edərsə, Türkiyənin yaxınlaşacağı iki ölkə bunlardır. Rusiyanın bu məsələdə birmənalı şəkildə Türkiyənin tərəfini tutacağına zəmanət yoxdur. Türkiyə Rusiyanı özünə qarşı qaldırmamaq üçün S-400-dən sonra Rusiyanın Su-35 qırıcılarını alarmı? Bu məsələ də gündəlikdə durur. Prezident Ərdoğan deyib: "F-35-i vermirsiniz? Onda biz başqa yerdə variantlar axtararıq". Suriya problemi Türkiyə-Amerika münasibətlərini onların tarixindəki ən əlverişsiz dövrlərdən birinə gətirib çıxardıb. Türkiyənin müttəfiqlik münasibətləri anlayışı dəyişilib. NATO-nu laxladacaq miqyaslar alıb. Türkiyənin sarsılmazlığını təhdid etməyə başlayan hadisələr fonunda Ankaranın milli birlik və ərazi bütövlüyünə əsaslanan siyasət yürütməyi zərurətə çevrilir. Və bu siyasət keyfiyyətcə elə olmalıdır ki, ölkə daxilində müxalifət də onu dəstəkləsin". Bütün bunlar bir daha Türkiyə - ABŞ münasibətlərində yenidən gərgin bir mərhələnin başlandığını göstərir.

***Nahid SALAYEV***

# Hindistanla Pakistan yenidən müharibə vəziyyətinə girdi

## *Dehli Kəşmirin xüsusi statusunu ləğv etdi...*

**Hindistan Pakistanla vəziyyəti daha da gərginləşdirəcək yeni qərar verib. Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, Yeni Dehli Cammu Kəşmirin xüsusi statusunu ləğv edib.**

Hindistan hökuməti Cammu Kəşmirə digər əyalətlərdən daha çox muxtariyyət tanıyan konstitusiyanın 370-ci maddəsində dəyişiklik edilməsi üçün parlamentə təklif göndərib və təklif qəbul edilib.

Bu barədə daxili işlər naziri Amit Şah açıqlama verib. Təklif müxalif deputatların etirazı ilə qarşılanıb. Parlamentdəki etirazların şiddətlənməsindən sonra Amit Şah bildirib: "Bu ilk dəfə deyil, 1952 və 1962-ci illərdə bənzər hadisələr baş verdi və parlament 370-ci maddəni dəyişdirdi. Buna görə etiraz etmək əvəzinə, xahiş edirəm danışmağa icazə verin, bütün şübhələriniz və yanlış bilgiləriniz həll ediləcək və bütün suallarınıza cavab verməyə hazıram".

Bu arada, Cammu Kəşmirə günlərdir hərbiləşmiş qüvvələrinin yığılmasından sonra gecə bölgədəki siyasətçilər ev dustağı edilib. Bölgədə, həmçinin toplantılar qadağan edilib, məktəblər bağlanıb, mobil şəbəkələrə və internetə məhdudiyyət qoyulub.

Kəşmirdə komendant saatı elan edən Hindistan bölgədəki turistlərə və hindu zəvvarlara bölgəni tərk etmək, xalqa isə ərzaq tədarükü görmək çağırışı edib. Kəşmirin iki keçmiş baş naziri Ömər Abdullah və Mehbooba Müfti isə həbs edilib. Hindistan son həftələrdə bölgəyə 35 min əsgər göndərib.

Pakistan isə Kəşmir bölgəsinə Hindistan tərəfindən hər hansı bir müdaxilənin müharibə səbəbi kimi qəbul ediləcəyini bəyan edib.

Qeyd edək ki, İngiltərə 1947-ci ildə Hindistandan çəkilərkən Kəşmiri Hindistan və ya Pakistanla birləşmək məsələsində sərbəst buraxdı. Bu ölkələr müstəqillik qazandıqdan sonra Kəşmirin ərazisi Hindistanın və Pakistanın idarəsi altında olan zonalara bölünüb. Kəşmir ərazisinin bir parçası da Çinin nəzarəti altına keçib.

Əhalisinin 90 faizini müsəlman olan Kəşmir xalqı 1947-ci ildə Pakistana qoşulmaq istəsə də, dövrün hökmdarı




Hindistanla birləşməyə qərar verdi.

Müsəlman Kəşmir xalqının bu qərara qarşı çıxmasından sonra Pakistan və Hindistan bölgəyə qoşun göndərdi və iki ölkə arasında ilk dəfə 1947-ci ildə Kəşmir uğrunda müharibə başladı. İki ölkə arasında yenə eyni səbəbə görə 1965 və 1999-cu illərdə də müharibə baş verdi.

Hazırda Kəşmirin 45 faizi Hindistanın, 35 faizi Pakistanın, 20 faizi isə Çinin nəzarətindədir.

Hindistan ələ keçirdiyi bölgəni "Cammu Kəşmir" əyaləti adı altında öz ərazilərinə birləşdirdi. Cammu Kəşmir hazırda Hindistanda müsəlman əhalinin çoxluq təşkil etdiyi yeganə əyalət sayılır.

Pakistan isə öz nəzarətində olan Kəşmirə "Azad Kəşmir" (Müstəqil Kəşmir) və "Gilgit Baltistan" kimi iki muxtar bölgə statusu verdi.

BMT TŞ 1948-ci ildən bəri qəbul edilən qərarlarla Kəşmirin silahsızlaşdırılması və gələcəyinin referendumla müəyyən edilməsini nəzərdə tuturdu.

Hindistan xalq səsverməsini dəstəkləməsə də, Pakistan BMT TŞ qərarlarının icra edilməsini istəyir.

# İran XİN başçısının Trampla görüşmək üçün gizli şəkildə Ağ Evə dəvət edildiyi xəbərləri rəsmən təsdiqləndi

## *Tehran Avropanı nüvə sazişindən çıxmaqla hədələdi*

**İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif bəyan edib ki, Avropa ölkələri nüvə sazişini qorumaq üçün addım atmasa, İran nüvə proqramını razılaşmadan əvvəlki səviyyədən də daha yüksək səviyyədə davam etdirəcək.**

Baki-xeber.com xəbər verir ki, Tehranda Xarici İşlər Nazirliyində mətbuat konfransı keçirən Zərif Avropa ölkələrinə xəbərdarlıq edib.

Avropa ölkələri nüvə sazişinə dair öhdəliklərini yerinə yetirməzsə, İran ABŞ-ın sanksiyalarına qarşı nüvə sazişindəki öhdəliklərini azaltmaqda davam edəcəyini deyən Zərif, Avropanı anlaşmanı qorumağa çağırıb.

"Razılaşma qorunmasa, nüvə proqramımızı nüvə sazişindən əvvəlki səviyyədən daha yüksək səviyyəyə çatdıracağıq" - deyən Zərif nüvə anlaşması ləğv ediləcəyi halda İranın atacağı addımlar barədə xəbərdarlıq edib.

Zərif ABŞ-ın ona qarşı tətbiq etdiyi sanksiyalar barədə də danışıb və keçən ay Nyu-Yorkda olarkən onun ABŞ Prezidenti Donald Trampla görüşmək üçün gizli şəkildə Ağ Evə dəvət edildiyinə dair xəbərləri də təsdiqləyib. "Nyu-Yorkda olduğum müddətdə mənə dəvəti rədd etsəm, iki həftə sonra sanksiya siyahısına salınacağım söyləndi, amma imtina etdim" - Zərif deyib.

Qeyd edək ki, bir neçə gün əvvəl Amerikanın "New Yorker" jurnalı İran və ABŞ diplomatlarına istinadən xəbər yaymışdı ki, BMT iclaslarında iştirak etmək üçün iki həftə əvvəl Nyu-Yorka gedən Zərif Trampa yaxınlığı ilə tanınan senator Rand Pol tərəfindən Ağ Evə dəvət edilib.

Senator Pol və onun müşaviri Douq Stafford iyulun 15-də Trampın razılığı ilə Nyu-Yorkdakı BMT-dəki İran nümayəndəliyinin ofisində Zəriflə görüşüb. Görüşdə İranın nüvə proqramı və Fars körfəzindəki gərginlik də daxil Vaşinqtonla İran arasındakı problemlər müzakirə edilib.

Zərif ABŞ senatoruna İranın nüvə proqramı ilə bağlı Trampın narahatlığını aradan qaldırmaq üçün, İran lideri Ayətullah Əli Xamneyinin 2003 və 2010-cu illərdə nüvə silahının qadağan edilməsinə dair fətvasını Məclisdə təsdiqləyərək qanun halına salmaq da daxil, bir sıra təkliflər təqdim edib.



Senator Pol isə sözügedən təklifləri birbaşa Trampa təqdim etməsi üçün Zərifi Ağ Evə dəvət edib. Bundan sonra Zərif görüşün nəticəsiz olacağından narahat olduğunu bildirib.

Zərif Trampla görüş dəvətinə təkbaşına qərar verə bilməyəcəyini və Tehranla məsləhətləşməli olduğunu söyləyib.

Görüşdən sonra Zərif bu barədə Tehrana məlumat verib, ancaq Trampla görüş dəvətinə razılıq verilməyib.

# Sosial müdafiənin iki mühüm parametrinə görə Azərbaycan MDB-də I və II yerləri tutdu

**Prezident İlham Əliyev ölkə əhalisinin rifah halının gücləndirilməsi istiqamətində ötən illər ərzində silsilə işlər görüb. Görülən işlər sayəsində minimum əməkhaqqı və minimum pensiya məbləği yüksəlib. Bəllidir ki, bu il Azərbaycanda minimum əməkhaqqı 250 manata çatdırıldı. Beləliklə, cəmi 6 ay ərzində Azərbaycanda minimum əməkhaqqı təxminən iki dəfə artırılıb.**



## *Vüqar Bayramov: "...son illər MDB ölkələrində müşahidə edilməyən bir haldır"*

## *Musa Quliyev: "Bu bizim müstəqillik dövründə sosial sahədə əldə etdiyimiz ən böyük uğur və göstəricilərdən biridir"*

Təbii ki, pensiya məbləğinin və əməkhaqqının artırılması əhalinin güzəranına müsbət təsir edir.

Azərbaycanda qeydə alınan məlum müsbət dəyişikliklər beynəlxalq təşkilatların da diqqətindən yayınmayıb. Ümumiyyətlə, MDB ölkələri arasında Azərbaycan əməkhaqqı və pensiya məbləğinin artırılması parametrinə görə ön sıradadır.

Məlumat üçün bildirək ki, Azərbaycanda minimal pensiya 72 faiz artdığına görə ölkəmiz minimal pensiya üzrə alıcılıq qabiliyyətinə görə MDB də birinci, minimal əməkhaqqının 250 manata çatdırılmasından sonra isə bu göstərici üzrə MDB-də ikinci sırada qərarlaşıb.

Millət vəkili Musa Quliyev bildirdi ki, 2019-cu il müasir tariximizin sosial müdafiə sahəsində ən uğurlu illərindən biridir: "İlin əvvəlində Prezident İlham Əliyev 2019-cu ili sosial müdafiə sahəsində xüsusi il elan etdi. Doğrudan da bu il müstəqilliyimiz ərzində sosial təminatların həyata keçirilməsi, fərman və sərəncamların verilməsi, əhalinin sosial müdafiəsinin əsaslı surətdə yaxşılaşması ilə xarakterizə olunur.

Məlumdur ki, pensiyalar il ərzində təxminən 70 faiz, minimum əməkhaqqı iki dəfə artırıldı. Pensiyaların alıcılıq qabiliyyətinə görə MDB məkanında birinci yerə çıxmışıq, minimum əməkhaqqının alıcılıq qabiliyyətinə əsasən isə ikinci yerdə qərarlaşmışıq. Bu bizim müstəqillik dövründə sosial sahədə əldə etdiyimiz ən böyük uğur və göstəricilərdən biridir".

İqtisadçı-ekspert Vüqar Bayramov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, əhalinin sosial rifah halının yüksəlməsi məqsədilə Prezident tərəfindən mühüm islahatlar həyata keçirilib. O islahatlardan biri də minimum əməkhaqqı və pensiya məbləğinin artmasıdır: "İstər əməkhaqqı, istərsə də pensiyadakı artımların istehlak bazarına təsirinin minimallaşdırılması mümkündür. Azərbaycanda minimum əməkhaqqının 2019-cu ildə iki dəfə - 100 faizə yaxın artırılması, nəticə etibarilə, son illər MDB ölkələrində müşahidə edilməyən bir haldır. Təbii ki, istisna hallarda bir sıra ölkələrdə bu tip artımlar olur. Nəticə etibarilə bu ondan xəbər verir ki, Azərbaycanda vətəndaşlarımızın sosial təminatının gücləndirilməsi prioritetdir və hər zaman prioritet olaraq da qalmaqdadır. Eyni zamanda, Azərbaycan son artımlardan sonra MDB məkanında ən yüksək minimum əməkhaqqı olan ölkələr kateqoriyasına daxil oldu. Nəticə etibarilə biz MDB-də ən yüksək minimum əməkhaqqı təklif edən ölkələrdənik".

V.Bayramov onu da vurğuladı ki, sözügedən əməkhaqqı və pensiya artımı mərhələli şəkildə həyata keçirilib: "Minimum əməkhaqqının 100 faizə yaxın - iki dəfə artırılması birbaşa onunla bağlıdır ki, bazara iqtisadi və psixoloji təsir və təzyiqlər yaranmasın.

Bu baxımdan mərhələli şəkildə həm minimum əməkhaqqı, həm də minimum pensiya məbləğinin artırılması bazara təsir və təzyiqləri minimallaşdırmaq məqsədi daşıyır. Nəticə etibarilə vəsaitlərin bazara mərhələli şəkildə daxil olması anlamına gəlir ki, bu isə, təbii, inflyasiyayaradıcı effektlərin məhdudlaşdırılması və tənzimlənməsinə imkan verir".

***Günel CƏLİLOVA***

# Aztəminatlı ailələrin müdafiəsinə yönəldilmiş 1,3 milyon manat vəsait nə deməkdir...

**Respublikamızda həyata keçirilən sosial-iqtisadi siyasətin başlıca məqsədlərindən biri vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi və əhalinin sosial müdafiəsinin təmin edilməsidir. Son bir neçə ildə iqtisadiyyatın inkişafında əldə edilən nailiyyətlər bu məqsədin uğurla reallaşmasına şərait yaradıb.**



## *Elçin Quliyev: "Əhalinin sosial rifahının daha da yüksəldilməsi dövlət siyasətinin başlıca istiqamətlərindən biridir"*

Bütün kateqoriyalardan olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, əhalinin aztəminatlı təbəqələrinə kömək göstərilməsi, yoxsulluğun aradan qaldırılması Azərbaycanda dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Prezident İlham Əliyevin sosial siyasətinin fəlsəfəsi də ondan ibarətdir ki, ölkədə aztəminatlı, yoxsul insan olmasın. Fərəhli haldır ki, iqtisadiyyatda həyata keçirilən köklü islahatlar bu sferada dinamik və davamlı inkişafı təmin etməklə bərabər, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına geniş imkanlar açıb.

İqtisadi inkişaf, maliyyə imkanlarının çoxalması adekvat olaraq xalqın sosial rifahının, güzəranının daha da yaxşılaşdırılması, sosial problemlərin həlli istiqamətində atılan addımların real nəticələri ilə müşayiət olunmaqdadır. Prezident İlham Əliyevin sosial sahəyə diqqət və qayğısının nəticəsidir ki, son illər dövlət büdcəsi təsdiq olunarkən ali maliyyə sənədində sosialyönümlülük prioritet olaraq qalır.

Məlumdur ki, bu sahədə görülən işlər sayəsində müavinətlərin və təqaüdlərin artırılması 300 min əlilliyi olan şəxsi, 500 min məcburi köçkünü, 100 mindən artıq tələbəni, ümumilikdə, 1.3 milyon insanı əhatə edib. Ən əsası, bu addımlar aztəminatlı təbəqəni əhatə etməklə, bu kateqoriyaya aid olan insanların sosial durumunun xeyli yaxşılaşdırılmasını təmin edəcək.

Aztəminatlı ailələrin müdafiəsinin təmin olunması məqsədilə vəsait ayrılıb. Ayrılan vəsait aztəminatlı ailələrin sosial vəziyyətinin yaxşılaşmasına və inkişaf etməsinə şərait yaradır.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili Elçin Quliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, əhalinin sosial rifahının daha da yüksəldilməsi dövlət siyasətinin başlıca istiqamətlərindən biridir: "Dövlət başçısının həyata keçirdiyi sosial islahatların əsas istiqamətləri əhalinin məşğulluğunun təmin edilməsi, paralel olaraq, sosial müdafiə məsələlərində ünvanlılıq prinsipinə üstünlük verilməsi, aztəminatlı ailələrin, əlillərin, ailə başçısını itirənlərin, şəhid ailələrinin və bu qəbildən olan digər şəxslərin pensiya və müavinət təminatının yaxşılaşdırılmasından, onların həyat səviyyəsinin yüksəldilməsinə şərait yaradılmasından ibarətdir. Məlumdur ki, bu il əməkhaqlarının, pensiyaların, sosial müavinətlərin, təqaüdlərin əhəmiyyətli dərəcədə artırılması əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılmasına gətirib çıxardı. Sosial proqramların qəbulu cəmiyyətimizin böyük hissəsini əhatə edir".

## *"Sosial müavinətlərin, təqaüdlərin əhəmiyyətli dərəcədə artırılması əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılmasına səbəb olub"*

Millət vəkili bildirdi ki, bu ilin ilk ayları ölkəmizdə xüsusən sosial sahədə həyata keçirilən və milyonlarla vətəndaşın rifahına birbaşa təsir göstərən tədbirlərlə əlamətdardır: "Qısa müddət ərzində bu qədər sosialyönümlü qərarların verilməsi bir daha göstərir ki, Prezident İlham Əliyev üçün ən ümdə məsələlərdən biri vətəndaşlarımızın yüksək rifah içində yaşamasıdır. Bu həm də Prezident İlham Əliyevin cəsarəti və inamlı, ölkə vətəndaşlarının gələcəyinə hesablanmış qətiyyətli siyasətinin təzahürüdür. Şübhəsiz, respublikamızın iqtisadi imkanları artdıqca, vətəndaşlarımızın sosial rifahının daha da yüksəldilməsinin şahidi olacağıq. Artıq buna kimsə şübhə edə bilməz. Sosial müavinətlərin artırılması, əlillərin, şəhid ailələrinin maddi rifahının yaxşılaşdırılması istiqamətində verilən sərəncamlar, görülən tədbirlər yürüdülən məqsədyönlü sosial siyasətin tərkib hissəsidir və vətəndaşların rifah halının daha da yaxşılaşdırılmasına xidmət edir. Prezident İlham Əliyev əhaliyə, xüsusilə aztəminatlı ailələrə sosial xidmətlərin göstərilməsi zamanı vətəndaş məmnunluğunu daim diqqət mərkəzində saxlayıb".

***Günel CƏLİLOVA***

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat - DOST Agentliyi və DOST mərkəzlərinin fəaliyyətinə start verilməsi insanların həyatında mühüm rol oynamağa başlayıb. Ölkəmizdə yeni təsisat olan bu mərkəzlərin yaradılması vətəndaş məmnunluğunun təmin edilməsinə xidmət edir.**

***Əli Əlirzayev:** ”Bu xidmətlərin siyahısına əmək, məşğulluq, sosial təminat, ünvanlı dövlət sosial yardımı, əlillik, pensiya, sosial sığorta və digər aidiyyəti sahələr üzrə 126 növ xidmət daxildir”*

***Ruslan Atakişiyev:** ”DOST mərkəzlərinin əhaliyə göstərdiyi xidmət kifayət qədər şəffaf və keyfiyyətlidir”*

# DOST mərkəzlərinin göstərdiyi 126 xidmətə nələr daxildir...




Respublikamızda aktiv fəaliyyət göstərən DOST mərkəzlərinə bu il 20 min müraciətin daxil olduğu bildirilir. Qeyd olunana görə, vətəndaşların məmnunluğu səviyyəsi 93 faizə yüksəlib. Bu gün DOST mərkəzlərində vətəndaşlara artıq 126 növ xidmət təklif edilir. Məlumatlara görə, bu il daha bir, gələn il isə 3 mərkəzin açılması nəticəsində Bakı əhalisinin 80 faizi əhatə olunacaq.

DOST mərkəzlərində əhaliyə təklif olunan 126 növ xidmət barədə danışan iqtisadçı-ekspertlər hesab edirlər ki, vətəndaşların rahatlığının təmin olunmasında bu xidmətlərin xüsusi yeri var.

İqtisadçı-ekspert Əli Əlirzayev bizimlə söhbətində bildirdi ki, hazırda DOST mərkəzində əmək, məşğulluq, sosial təminat sahələri üzrə 126 növdə xidmət göstərilir ki, bu xidmətlərdən də sakinlər lazımi dərəcədə istifadə edə bilirlər. Artıq Azərbaycanda özünü doğruldan bu mərkəzlərdə gələcəkdə xidmətlərin sayının daha da artırılacağını istisna etməyən Ə.Əlirzayev bildirdi ki, 2019-2025-ci illərdə bütün ölkə üzrə 31 DOST mərkəzi yaradılacaq və həmin mərkəzlər 2,8 milyon şəxsi xidmətlərlə təmin edəcək. Mərkəzdə xidmətlərin "bir pəncərə", həmçinin, operativlik, vətəndaş məmnunluğu, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirildiyini vurğulayan Ə.Əlirzayev hesab edir ki, bu məkan insanların etibarlı müraciət ünvanına çevrilib. "DOST mərkəzlərinin yaradılması vətəndaşların həyatında müsbət rol oynayır. Bu gün müxtəlif istiqamətlər üzrə fəaliyyət göstən DOST mərkəzlərinə vətəndaşların sıx-sıx müraciət etməsi təbii haldır. DOST mərkəzləri ilə bağlı əsasnamədə bu mərkəzlərin göstərdiyi xidmətlər əks olunub. Deyərdim ki, əhalinin ehtiyacı olan bütün sahələri bu mərkəzlər əhatə edir. Bu xidmətlərin siyahısına əmək, məşğulluq, sosial təminat, ünvanlı dövlət sosial yardımı, əlillik, pensiya, sosial sığorta və digər aidiyyəti sahələr üzrə 126 növ xidmət daxildir. Bu elə bir xidmət sahəsidir ki, insanlar buradan ancaq razılıqla ayrılırlar. Bütün problemlərin həllinə burada kompleks yanaşılır. DOST mərkəzləri vətəndaşlara 126 növ üzrə xidmət göstərməklə, bütövlükdə, onların məmnunluğunu təmin edirlər".

O, həmçinin, qeyd etdi ki, mərkəzlərdə xidmətlərin birbaşa (yerində) xidmət, özünəxidmət, "çağrı mərkəzi" vasitəsilə xidmət və səyyar xidmət formasında, habelə qanunazidd olmayan digər formalarda təşkil edilməsi vətəndaşlara fayda verir.

Ə.Əlirzayevin sözlərinə görə, bununla yanaşı, mərkəzlərin fəaliyyətinə yardımçı xidmətlər, o cümlədən, cari bank hesablarının açılması, dövlət rüsumlarının və xidmət haqlarının qəbulu, daşınmaz əmlakın sığortası, inzibati xətalara dair cərimələrin qəbulu və sair də daxildir.

İqtisadçı-ekspert Ruslan Atakişiyev də "Bakı-Xəbər"ə açıqlamasında DOST mərkəzlərinə müraciətlərin sayının artmasını müsbət qiymətləndirdi. R.Atakişiyev qeyd etdi ki, vətəndaşlar burada öz problemlərini asanlıqla həll edirlər. "Qeyd edim ki, DOST mərkəzlərində əsas xidmətlər ümumi olaraq bir neçə istiqamətə bölünür. Burada istiqamətlərdən biri əmək münasibətləri ilə bağlıdır. Yəni işəgötürənlərə işçilər üzrə xidmətlərdir. Digər xidmət isə əlil və sağlamlıq imkanları məhdud olan əhaliyə göstərilən xidmətdir. DOST mərkəzlərində, həmçinin, məşğulluq, əmək pensiyaları, sosial müavinətlər, ünvanlı sosial yardımın təyin edilməsi, Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə müxtəlif şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təyin edilməsi sahəsində də xidmətlər göstərilir. Bu xidmətlərə eyni fərdi sığorta olunanların uçota alınması və uçotdan çıxarılması, sosial xidmət sahəsində müxtəlif xidmətlərin göstərilməsi daxildir. Bununla yanaşı, funksional yardım xidmətləri göstərilir. Yəni kreditlərdir, sığorta ödənişlərinin həyata keçirilməsi, avtomobillərin, daşınmaz əmlakın sığortası, notarius xidmətləri və s. bura aiddir. Vətəndaşların daha çox DOST mərkəzlərinə müraciət etməsinin səbəbi odur ki, burada onların problemləri daha asanlıqla həll olunur.

Əhali bura çox müraciət edir. DOST mərkəzlərinin əhaliyə göstərdiyi xidmət kifayət qədər şəffaf və keyfiyyətlidir. Bu da vətəndaşların daha inamla bu mərkəzlərə üz tutmasına imkan verir" - deyə R.Atakişiyev qeyd etdi.

*İradə SARIYEVA*




# "Sədərək" ticarət mərkəzindəki yanğının söndürülməsində polislər də iştirak edib

**Avqustun 4-də Qaradağ rayonunda "Sədərək" ticarət mərkəzinə məxsus anbarlardan birində yanğın baş verib.**

Yanğının qarşısı alınan zaman və sahibkarların məxsus malların hadisə yerindən çıxarılmasında polis əməkdaşları da vətəndaşlara yaxından köməklik ediblər. Xilasetmə zamanı polis əməkdaşlarından da bir neçəsi tüstüdən zəhərlənib. Qeyd edək ki, "Sədərək" Ticarət Mərkəzində baş verən yanğın zamanı təcili tibbi yardıma müraciət edənlərin ümumi sayı 16 nəfər olub. Onlardan 6-na yerində yardım edilib, 10 nəfər isə xəstəxanaya yerləşdirilib. Onlardan biri yanğın baş verən ticarət mərkəzinin əməkdaşıdır. Qalanlar isə yanğının söndürülməsində iştirak edən Fövqəladə Hallar və Daxili İşlər Nazirliklərinin əməkdaşları olub. Müraciət edənlər tibbi yardım göstərildikdən sonra evə buraxılıb.

**Ölkəmizdə özünüməşğulluq proqramının tətbiq edilməsi əhalinin sosial rifah halının yüksəldilməsində mühüm əhəmiyyətə malikdir. Dövlət dəstəyilə həyata keçirilən özünüməşğulluq proqramından Azərbaycan əhalisi ciddi şəkildə bəhrələnərək fəaliyyətini qurur.**

*"Növbəti illərdə bu proqramdan bəhrələnən ailələrin sayı daha da artacaq, çünki buna dövlət tərəfindən yüksək şərait yaradılıb"*

# İki ildə özünüməşğul ailələrin sayı 16 minə çatdırılacaq...

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müxtəlif illərdə əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində bir sıra sənədlər imzalayıb. Dövlətin sosial siyasətinin daha geniş hədəflərə çatması üçün böyük önəm daşıyan özünüməşğulluq proqramından istifadə edən ailələrin sayı günü-gündən artır.

Əhalinin məşğulluğunun artırılması istiqamətində həyata keçirilən işlərin sırasında özünüməşğulluq xüsusilə fərqlənir. Prezident İlham Əliyev əhalinin sosial rifah halının yüksəldilməsi yönündə çox ciddi islahatlar keçirib və bu islahatlar müsbət mənada öz bəhrəsini verir.

Məşğulluq proqramı üzrə görülən işlərin daha geniş miqyas alması və sürətlənməsi Azərbaycan Prezidentinin diqqət mərkəzindədir. Ölkə başçısı bu işin daha sürətlə həyata keçirilməsi və bu proqramdan daha çox ailənin bəhrələnməsi üçün kifayət qədər şərait yaradıb.

Qeyd edilənə görə, ötən il bu proqram 6 min ailəni əhatə edib, bu il isə əlavə vəsaitlərin cəlb olunması nəticəsində 10 min ailənin əhatə olunması nəzərdə tutulub. Məlumatlara görə, əhali arasında populyarlığı yüksələn bu proqram çərçivəsində ƏƏSMN-ə artıq 45 min müraciət daxil olub və 4 min nəfər təlim keçib, 110 nəfər aktiv əldə edib.

Prezident İlham Əliyevin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 2016-cı il 7 aprel tarixli Sərəncamının mühüm əhəmiyyət kəsb etdiyini deyən ekspertlərin bildirdiyinə görə, sərəncam dövlət məşğulluq siyasətində keyfiyyətcə yeni bir mərhələ açmaqla, özünüməşğulluq fəaliyyəti ilə işsiz və işaxtaran şəxslərin ailə bizneslərini qurmalarına, əmək potensiallarının reallaşdırılması yolu ilə gəlirlərini artırmalarına, həmçinin, kiçik və orta sahibkarlığın inkişafına xidmət edir.

İqtisadçı-ekspert Fikrət Yusifov "Bakı-Xəbər"ə bildirdi ki, özünüməşğulluq proqramı Azərbaycan ailələrinin, xüsusən də aztəminatlı ailələrin rifahının yüksəlməsinə səbəb olub. O qeyd etdi ki, Azərbaycanda sosial siyasətin əsas istiqamətlərindən birini əhalinin məşğulluğunun təmin olunması, yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması təşkil edir. Dövlət tərəfindən aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi ilə yanaşı, onların aktiv əməyə cəlb edilməsinə, məşğulluğunun təmin olunmasına və bununla da fəal

## *Fikrət Yusifov: "Özünüməşğulluq proqramı çərçivəsində fəaliyyət göstərən ailələrin sayının bu səviyyədə artması müsbət göstəricidir"*



həyat mövqeyinin formalaşmasına xüsusi əhəmiyyət verilir.

F.Yusifovun sözlərinə görə, son illər daha çox ailə bu proqramla əhatə olunub və olunacağı da şübhə doğurmur. "Özünüməşğulluq proqramının əsas məqsədi əhalinin məşğulluğunu təmin etməkdir. Bu proqram xüsusən də kənd yerlərində yaşayan əhalinin hansısa bir fəaliyyət növü ilə məşğul olmasına, onların özünüməşğulluq hesabına ailə büdcəsini təmin etməsinə şərait yaradır. Bu proqrama qoşulanlar hansısa bir biznes növünü inkişaf etdirməklə öz yaşayışlarını təmin edirlər. Dövlət büdcəsindən də bu sahəyə maliyyə ayrılır. Təbii ki, özünüməşğulluq proqramının tətbiqi, bütövlükdə, ölkədə əhalinin sosial müdafiəsinin, xüsusilə də ölkənin aztəminatlı təbəqəsinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan çox müsbət, gərəkli və təqdirəlayiq addımlardır. Hesab edirəm ki, növbəti illərdə bu sahəyə daha geniş səviyyədə dövlət dəstəyi göstərilməsi mümkün olacaq. Çünki insanların öz yerlərində özünüməşğulluqla məşğul olması, biznes qurması, öz maddi problemlərini bu yolla həll etməsi dövlətin qayğılarını azaldır, onun vətəndaş qarşısındakı öhdəliklərinin yerinə yetirilməsində bir yardımçı olur. Ona görə də özünüməşğulluq proqramı çərçivəsində fəaliyyət göstərən ailələrin sayının bu səviyyədə artması müsbət göstəricidir. Fikrimcə, növbəti illərdə bu proqramdan bəhrələnən ailələrin sayı daha da artacaq, çünki buna dövlət tərəfindən yüksək şərait yaradılıb" - deyə F.Yusifov bildirdi.

O, həmçinin, qeyd etdi ki, ölkəmizin bütün bölgələrində özünüməşğulluq proqramı çərçivəsində aktivlərlə təmin edilən vətəndaşların öz ailə təsərrüfatlarını və bizneslərini qurmağa nail olması müsbət haldır. Yaxın bir-iki ildə də özünüməşğulluq proqramına qoşulanların sayı daha da artacaq. Ailələrin müxtəlif sahələr üzrə öz ailə bizneslərini yaratmaq üçün dövlət tərəfindən ciddi dəstək göstərilməsini təqdir olunmalı hal olduğunu bildirən F.Yusifov qeyd etdi ki, bu, ölkədə işsizliyin də kəskin şəkildə azalmasına gətirib çıxaracaq.

***İradə SARIYEVA***

# "Azercell"in Rəqəmsal Dünyası bölgələrə genişlənir

## *"Azercell" "Rəqəmsal Dünya bölgələrdə" layihəsinə həsr olunmuş mətbuat konfransı keçirib*

**Rəqəmsal dünyanın yeniliklərini abunəçiləri üçün daha əlçatan etməyi hədəfləyən Azərbaycanın telekommunikasiya sahəsinin lideri "Azercell Telekom" MMC 5 avqust tarixində, mətbuat konfransında jurnalistləri bir araya toplayıb.**

Mətbuat konfransı şirkətin böyük maraqla qarşılanan və regionları qarış-qarış gəzən "Rəqəmsal Dünya bölgələrdə" adlı layihəsinə həsr olunub. Naxçıvan şəhərindən başlayan və artıq Şərur, Ordubad, Quba, Xaçmaz, Qusarda baş tutan bu layihədə "Azercell" ölkəmizin 30-a yaxın şəhər və rayonuna səfər etməyi planlaşdırır.

Mətbuat konfransında çıxış edən "Azercell Telekom" MMC-nin prezidenti Vahid Mürsəliyev internetsiz, daimi bağlantısız bu layihənin ərsəyə gəlməsinin mümkün olmadığını bildirib. "Odur ki, biz respublikamızın bütün bölgələrinin sakinlərini bərabər texnoloji imkanlarla təmin etmək, yüksək sürətli interneti sayəsində ən son innovasiyaları onların istifadəsinə vermək üçün ölkə boyu 4G şəbəkəsini gücləndirdik və genişləndirdik. Qeyd edim ki, təkcə son yarım ildə ölkədə telekommunikasiya sahəsinin inkişafına 63 milyon manatdan artıq vəsait yatırdıq. Bu müddətdə Bakı və Abşeron da daxil olmaqla, ölkəmizin 57 bölgəsində 1007 yeni LTE stansiyası qurduq. Ümumi stansiyalarımızın sayı isə 7000-i ötdü" - deyə V.Mürsəliyev vurğulayıb.

"Layihə çərçivəsində insanların həyat tərzini rahatlaşdıran texnoloji yeniliklər və mobil qurğuların texniki imkanlarından istifadə edilməklə xidmətlərin əlçatanlığı nümayiş olunur"- deyə, "Azercell Telekom" MMC-nin İstehlakçı Seqment Biznes Strukturunun rəhbəri Krasimir Genov öz nitqində bildirib. Həmçinin, K.Genov jurnalistlərə layihə çərçivəsində səfərlərin təşkil ediləcəyi bölgələr haqda da məlumat verib.




"Azercell Telekom" MMC-nin Korporativ Ünsiyyət şöbəsinin rəhbəri Nigar Şıxlinskaya öz çıxışı zamanı layihənin sosial tərəfindən bəhs edib. Belə ki, fəaliyyəti boyunca on minlərlə insana yardım edən "Azercell"in "Mobil Göz" və "Mobil Diş" klinikaları "Rəqəmsal Dünya bölgələrdə" layihəsi çərçivəsində səfərlərə qoşularaq, "Xəzər Qayğıkeşlik" İctimai Birliyinin həkimləri ilə regionlarda yerləşən internat məktəbləri və uşaq evlərinin kiçik sakinləri üçün təmənnasız müayinə və müalicə təşkil edirlər. Bundan əlavə, "Azercell" tərəfindən uşaqlara hədiyyə olaraq məktəb çantası, məktəb ləvazimatları və digər hədiyyələr də paylanır. Bununla yanaşı, N.Şıxlinskaya 4G şəbəkəsinin genişlənməsi üzrə şirkətin son nailiyyətlərindən danışıb. O bildirib ki, "Azercell" son yarımildə Azərbaycanın 57 şəhər və rayonunda əhali əhatəsi dairəsində 86.2%, coğrafi ərazi əhatə dairəsində isə 61.4% artıma nail olub. Həmçinin, N.Şıxlinskaya günlük LTE data istifadəsində 49.6%, LTE yükləmə və ötürmə sürətində isə 16%-dək artım qeydə alındığını vurğulayıb.

Mətbuat konfransının sonunda jurnalistlər "Azercell"in mobil klinikalarına baxış keçiriblər.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

**Bakının nəinki ətraf qəsəbələrinin, hətta mərkəzi küçələrinin belə, gecə işıqlandırılması ilə bağlı ciddi problemlər yaşanır. Təsadüfi deyil ki, məhz bu nöqsanın aradan qaldırılmasının zəruriliyinə son müşavirədə cənab Prezident də toxunub.**

# Yasamaldakı "Günəş petrol"dan dairəvi yoladək bir ədəd də işıq dirəyi yoxdur - Sakinlər Prezidentin iradına fəal dəstək verdilər



Redaksiyamızla əlaqə saxlayan Yeni Yasamal massivində yaşayan bir qrup sakin gecələr zülmət qaranlığa qərq olduqlarını yazır. Onlar bildirirlər ki, "Günəş petrol" deyilən yola, Bakı dairəvi yolunu birləşdirən Əsəd Əhmədov küçəsində bir dənə olsun gecə işıqlandırma vasitəsi yoxdur. Sakinlər qeyd edirlər ki, bu amil həmin ərazilərdə cinayət hadisələrinin, piyada ölümü, yol-nəqliyyat hadisələrinin, xüsusilə də soyğunçuluq hallarının yaşanmasına rəvac verir. Dünyanın inkişaf etmiş şəhərlərində, xüsusən şəhər mərkəzindən kənar qəsəbələrin işıqlandırılması, həmin ərazilərdə elektrik dirəkləri və digər işıqlandırma vasitələrinin bərabər paylanması kimi amillərə xüsusi diqqət yetirilir. Ancaq şəhərin mərkəzi hissəsi sayılan Yeni Yasamal ərazisində belə acınacaqlı halın yaşanması bizi doğrudan da təəccübləndirdi. Sakinlərin, o cümlədən, sürücülərin ən çox şikayət etdiyi hallardan biri də həmin küçədə, ümumiyyətlə, işıqlandırma sisteminin olmamasıdır.

Məlumdur ki, cənab Prezident "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nı təsdiq edib. Proqrama yol hərəkəti təhlükəsizliyinin təmin edilməsilə bağlı zəruri tədbirlərin həyata keçirilməsini nəzərdə tutan müddəalar daxildir. Onların arasında ən vacib müddəalardan biri işıqlandırma ilə bağlıdır. Proqramda avtomobil yollarında müasir standartlara cavab verən süni işıqlandırma sistemlərinin, işıqqaytarıcı yol nişanları və vasitələrinin quraşdırılması, həmçinin, regionlarda yolların işıqlandırılması məsələləri öz həllini tapmalıdır.

Sakinlər şikayətlərində olduqca maraqlı təkliflə də çıxış ediblər: "Təklif edirik ki, Yeni Yasamal yaşayış massivi üzrə monitorinqlər keçirilsin. Həm ekspertlər, həm də aidiyyəti strukturların iştirakı ilə işçi qrup yaradıla bilər. İşçi qrup monitorinqlər apararaq müəyyən edə bilər ki, hansı ərazilərdə işıqlandırma zəifdir. Həmin ərazilərdə təcili və təxirəsalınmaz işlər həyata keçirilə bilər".

Bildiyiniz kimi, Yeni Yasamalda Əsəd Əhmədov küçəsi strateji yol kimi qymətləndirilir. Əhalinin əksərriyyətinin bu yoldan istifadə etməsi hamıya məlumdur. Bu yoldan "Binə", "Sədərək" ticarət mərkəzlərinə və rayonlara getmək üçün intensiv istifadə edilir. Hətta irihəcmli yük avtomobilləri də buradan istifadə edir. Həmin ərazidə piyada ölümü ilə nəticələnən yol-nəqliyyat hadisəsi tez-tez baş verir.

Sakinlər bildirirlər ki, burada səbəbkarı axtarmaq lazımdır: "Kimdir səbəbkar? Zülmət qaranlıq küçədə piyadanı görməyən sürücülər, yoxsa həyatını itirən piyadalar? Bəlkə insan həyatına biganə yanaşan məsul şəxslər?"

Sakinlər deyirlər ki, qeyd olunanlara baxmayaraq, artıq bir neçə ildir bu yollarda işıq dirəkləri quraşdırılmır: "Səbəbi isə heç kimə məlum deyil. Sizdən xahiş edirik ki, bu vəziyyəti ictimailəşdirəsiniz, bizim səsimizi əlaqədar qurumlara çatdırasınız. Yuxarıda qeyd olunan "həllolunmaz" problemləri qısa bir zamanda aradan qaldıraraq bu ölkənin vətəndaşlarının həyatını heç olmasa qaranlıq yolları işıqlandıraraq xilas edəcəyinizə ümid edirik".

Sakinlərin şikayəti ilə yerindəcə tanış olmaq üçün həmin ərazidə olduq. Qaranlıq düşəndən sonra həmin ərazidə Bakıdakı inkişafdan, demək olar ki, əsər-əlamət yoxdur. Yasamal Rayon İcra Hakimiyyətindən bizə bildirdilər ki, həmin yola işıq dirəklərini basdırmaq onların səlahiyyətinə aid deyil. Bunu yol infrastrukturu ilə məşğul olan qurum etməlidir.

Təəsüf ki, "Azəravtoyol" ilə əlaqə saxlamaq cəhdlərimiz alınmadı. Ancaq ümidvarıq ki, əlaqədar qurumlar hətta ölkə rəhbərliyini də dərindən narahat edən problemə həssas yanaşaraq sakinləri narahat edən problemi aradan qaldıracaqlar.

***Məhəmmədəli QƏRİBLİ***

# Binəqədidə avtoxuliqanlıq edən "İnfiniti" sürücüsü 500 manat cərimə edildi




**Binəqədi Rayon Polis İdarəsi Dövlət Yol Polisi Şöbəsinin əməkdaşları rayon ərazisində avtoxuliqanlıq edərək ictimai asayişi nümayişkəranə şəkildə pozan və bununla da vətəndaşların haqlı narazılığına səbəb olan sürücünü saxlayıb.**

Belə ki, Ağdam rayon sakini Əliyev Loğman Ramiz oğlu 99SP 502 dövlət qeydiyyat nişanlı "İnfiniti FX 35" markalı avtomobillə hərəkətdə olan zaman yol polisləri tərəfindən ona saxla işarəsi verilib. Amma sürücü nəqliyyat vasitəsini saxlamayaraq hərəkətini davam etdirib. Bu zaman sürücü avtoxuliqanlıq hərəkətləri edərək ictimai qaydanı və əhalinin dincliyini pozaraq dəfələrlə yol hərəkəti qaydalarını kobud şəkildə pozub. Sürücü saxlanan zaman məlum olub ki, o, avtomobili idarə etmək hüququ olmadan sükan arxasına keçib. Sürücü barəsində Dövlət Yol Polisi Şöbəsində inzibati protokol tərtib edilib və toplanmış materiallar Binəqədi Rayon Məhkəməsinə təqdim edilib.

Məhkəmənin qərarına əsasən Loğman Əliyev İnzibati Xətalar Məcəlləsinin 511.1 (avtoxuliqanlıq) və 332.2 (Nəqliyyat vasitəsini idarə etmək hüququ olmadan nəqliyyat vasitəsinin idarə edilməsinə görə) maddələrilə 1 il nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum olunub və 500 manat məbləğində cərimə edilib.

Qeyd edək ki, avtoliqanlıq edən L.Əliyevin ikinci qrup əlil olduğu və etdiyi hərəkətdən səmimi peşmançılıq hissi keçirdiyi nəzərə alınaraq barəsində məhkəmə tərəfindən inzibati qaydada həbs qərarı çıxarılmayıb.

№ 137 (4035) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

6 AVQUST 2019-cu il

www.baki-xeber.com

# Təbiəti qorumaq üçün torpaqda parçalana bilən yeni plastik material hazırlanıb

**Təbiəti Qoruma Təşkilatı iqlim dəyişikliyi ilə mübarizə aparmaq və təbiəti qorumaq üçün torpaqda parçalana bilən yeni plastik material hazırlayıb.**

"AZƏRTAC" bildirir ki, təşkilatın rəhbəri Tony Bova yeni plastik növün istehsalının təbiəti qorumaq üçün mühüm nailiyyət olduğunu deyib. Mütəxəssislər yeni plastik növün əhəmiyyətindən danışarkən bildiriblər ki, bir çox evdə plastik qabda çiçək saxlanılır. Lakin bu qablar çiçəklərin inkişafına mənfi təsir edir. Yəni, çiçək kök inkişafını tam təmin edə bilmir. Belə qablar yararsız hala düşdükdə isə onu atmağa məcburuq. Ancaq bu qablar torpaqda çürüməyə məruz qalmır, təbiətə, canlılara ziyan vurur. Yeni plastik material isə torpaqda müəyyən dövrdən sonra bioloji parçalanmaya məruz qalır. Torpaqdakı və ya gübrədə olan müxtəlif mikroorqanizmlər onları qida kimi istehlak edə bilir. Ağacdan hazırlandığı üçün parçalanan zaman torpağı karbonla zənginləşdirir.



## Azov dənizində əcaib məxluq peyda oldu?

Azov dənizində əcaib məxluq tapılıb. "Ölkə.az" bildirir ki, Azov dənizində fırtınadan sonra qəribə hadisələr baş verməyə başlayıb. Balıqçılar, həyat əlamətləri olmayan bir su pərisinin gəldiyini iddia edib. Şahidlər onun fırtına zamanı ölə biləcəyindən şübhələnib. Ufoloqlara məxluqun görünüşü məlum olub. Təxminən 3 metr hündürlükdə olan bir yadplanetlinin başı, qolları və quyruğu olub. Azov dənizində əvvəllər belə heç nə görünməyib. Qeyd edilir ki, bu məxluq yerə yalnız bir yolla, altı ay əvvəl Marsda yoxa çıxan roverdən (marsaxoddan) istifadə edərək qovuşa bilib. Bəlkə də yad planetlilər cihazı qırmızı planetdə tapıb, məxluqla birlikdə yerə göndərib və Azov dənizinə düşüb. Elm adamları Marsda həyatın mövcudluğunu inkar etsələr də, ufoloqlar əmanətlərin, molyuskların və buzların artıq orada tapıldığına əmindirlər. Bu da kosmik təşkilatların yadplanetliləri araşdırmaq hüququ uğrunda mübarizə aparacaqlarını göstərib. "Pişik adamı"nın həqiqi bir məxluq olub-olmadığı rəsmi olaraq təsdiqlənməyib.

# Arıların ayaqlarında daşıdığı möcüzəvi qida...

**Allahın biz insanlara verdiyi nemətlərdən biri də arı məhsullarıdır. Bu məhsullar həm qida kimi istehlak edilir, həm də xalq təbabətində geniş istifadə edilir.**

Arı məhsulları dedikdə, ağıllara ilk növbədə bal, arı südü kimi qidalar gəlir. Amma, "arı çörəyi" kimi tanınan qida da belə məhsullara daxildir və insan orqanizminə olduqca faydalıdır. "Yeniavaz.az" "arı çörəyi"nin faydalarını təqdim edir: Arı çörəyi təbii vitamin və mineral mənbəyidir. Ona eyni zamanda "Güləm" də deyilir. Mədə və bağırsaq florasını tənzimləyir, zehni fəaliyyəti artırır; Uşaqların sağlam böyüməsinə və inkişafına müsbət təsir edir; Həzm sistemini tənzimləyir; Allergik reaksiyaları azaldır; Qandakı xolesterol səviyyəsini nizamlayır. Bütün bunlardan əlavə, "Güləm" qaraciyər xəstəliklərində, mədəaltı vəzi xəstəliklərində, anemiya, hormonal disbalans, fiziki və zehni gerilik, immun zəifliyi, beyin qan dövranı pozulması, xroniki yorğunluq sindromu, davamlı infeksiyalar və s. zamanı effektiv təsir göstərir. Tərkibi çiçək tozundan ibarətdir. Çiçək tozu özü dəmirlə zəngin olduğundan bir çox xəstəliklərə faydalıdır. Tərkibində K və B vitamini olan "Güləm"dən, qan azlığında, əməliyyadan sonrakı dövrlərdə, şəkərli diabet və endemik zobun müalicəsində də geniş istifadə edilir. Necə hazırlanır? Arılar çiçək tozunu toplayaraq bal və arı südü ilə qarışdırıb pətəkdəki yuvalara yığır, işçi arılar onları başları ilə yuvaya doldurur və üstünü şirələyirlər. Çiçək tozu bal və arı südü ilə biokimyəvi reaksiyaya girərək konservləşir və nəticədə, kimyəvi cəhətdən çiçək tozundan fərqlənən daha qiymətli bir məhsula çevrilir, özündə arı südü, propolis və balın xüsusiyyətlərini birləşdirir. Onu "arı çörəyi"-"Güləm" və ya "perqa"da adlandırırlar.

**Azərbaycan Dünyası Beynəlxalq Əlaqələr Mərkəzinin kollektivi, Əməkdar İncəsənət Xadimi, Azərbaycan Dünyası Beynəlxalq Əlaqələr Mərkəzinin Prezidenti Yasif Mirzə oğlu Nəsirliyə, həyat yoldaşı ÜZAFƏ xanım NƏSİROVANIN vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduqlarını bildirir, dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**
**Dəfn mərasimi 06 Avqust saat 13:00-da Təzə Pir məscidində keçiriləcək.**

## Elan

Cabbarov Müseyib Xansuvar oğluna məxsus, Bakı şəhəri, Qaradağ rayon, Lökbatan qəsəbəsi, S.Orucov küçəsi, ev №13, mənzil 2 ünvanında yerləşən binanın zirzəmisinin (qeyri-yaşayış sahəsi) çıxarışı itdiyi üçün etibarsız sayılır.

Əliyev İlqar Elxan oğlunun adına, Abşeron rayonu, Novxanı kəndində yerləşən RX seriyalı, 055898 nömrəli 35 sot torpağın çıxarışı itdiyi üçün etibarsız sayılır.

Allahverdiyev Növran Əsgər oğlunun adına Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən verilmiş TX 0775 nömrəli, verilmə tarixi 22.09.2017-ci il, etibarlılıq müddəti 22.09.2022-ci il olan xidməti vəsiqə, Nərimanov RPİ tərəfindən verilmiş şəxsiyyət vəsiqəsi və BDYPİ QİŞ tərəfindən verilmiş AD 114215 nömrəli sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Heç də pis gün deyil. Hadisələrin nisbətən ləng axarından narahat olmayın, qıcıqlanmayın. Yaxın ətrafınızdakı insanları tələsdirməyin və olaylara süni təkan verməyin. Yaşamın aram ritminə uyğunlaşın.



**Buğa** - Yeni perspektivlər və cazibədar imkanların yarandığı gündür. Vədlər verən və nələrdənsə bəhs edən insanlara asanlıqla inanmayın. İndi arxasınca getməyə hazır olduğunuz, inandığınız insandan əslində, mümkün qədər uzaq durmalısınız.



**Əkizlər** - Qarışıq, laübalı, mürəkkəb gündür. Hədsiz dərəcədə kəmhövsələ olmayın. Aqressiv davranmayın. Diqqətli, sayıq, həssas olun. Hövlnak qərarlar verməyin. Soyuqqanlı olsanız, bədxahlarınız pərişan qala bilər.



**Xərçəng** - Sakit gündür. Qüvvələrinizi toplayın, səylərinizi cəmləşdirin, yaşam arealı və işlərinizdə qayda yaradın. Məsuliyyətli və yaxın perspektivdə işlərinizə ciddi təsir edəcək qərarlar qəbul etməyin.



**Şir** - Diqqətli olun. Kiçik və ilk baxışdan önəmsiz təsir bağışlayan məsələlərə diqqətlə yanaşın. Yalnız belədə yalan və səhvlərin qarşığını aydın görə bilərsiniz. Sizə bəlli, hamının agah olduğu faktlar kimi təqdim olunan məsələlər əslində, müəmmalı ünsürlər ola bilər.



**Qız** - Bu gün nüfuzlu şəxsdən dəstək almaq, ciddi uğura nail olmaq şanslarınız var. Mövqelərinizi möhkəmləndirin. İrəliyə doğru hərəkətə mane olan daxili sədləri dəf edin.



**Tərəzi** - Əlverişli, uğur vəd edən gündür. Enerjili və aktiv olun. Belədə çox işlərin öhdəsindən gələ bilərsiniz. Ən müxtəlif məsələləri həll edin, qətiyyətli olun. Çətinlik yaranarsa, köhnə dostlar və ya yaxşı tanışlardan birindən yardım istəyə bilərsiniz.



**Əqrəb** - Rutin, yeknəsəq gündür. Darıxa bilərsiniz. Yeni perspektivlər və imkanlar yaranmasa da, ötənlərdə yol verdiyiniz səhvləri xatırlayaraq onları saf-çürük edin. Yeni yanlışlıqlara yol verməmək üçün optimal davranış modelini seçin.



**Oxatan** - Gün yeni üfüqlər, yeni imkanlar vəd edir. Gərəkli və faydalı işlər görməyə çalışın. İntuisiyanız o qədər güclənəcək ki, ehtimallarınızın dəqiqliyinə təəccüblənəcəksiniz.



**Oğlaq** - Sakit təhlil və uzunmüddətli planlaşdırma üçün əlverişli, pis olmayan zamandır. Dəqiqlik, səliqə, səbir tələb edən işlərlə məşğul olmaq mümkündür. Yaradıcılıq məsələlərinin çözümündə böhran var.



**Dolça** - İşlə bağlı problemlərin öhdəsindən gələcəksiniz. Lakin ciddi və əhəmiyyətli uğur barədə düşünün. Kiçik nəticələrlə kifayətlənsəniz, rəqib və bədxahlar daha böyük nailiyyətlər əldə edəcəklər.



**Balıqlar** - Günün əsas problemi davranışınızdır. Əvvəlcə addım atıb, sonra düşünməyin. Düşünülməmiş və planlaşdırılmamış əməlləriniz qəribə, ekstravaqant olmaqla yanaşı, çox pis fəsadlara səbəb ola bilər.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Yadplanetlilər günəş sisteminə hücum etdi

**Ulduzun yanında nəhəng bir UFO tapılıb. "Ölkə.az" bildirir ki, məşhur tayvanlı ufoloq Scott Waring, NASA teleskoplarının işıq sistemimizin yanında nəhəng bir boşqab peyda olduğunu düşünüb.**

Ufoloqun sözlərinə görə, əvvəlcə o günəş səthindən gələn maqmanın bir parıldadığını qərara alıb, lakin uçan cismin həndəsi cəhətdən aydın forması Waringdə şübhə yaradıb. Məlumata görə, yad gəmi ox kimi görünüb. Cismin ölçüsünü qiymətləndirən ufoloq, onun yerdən 10 qat böyük olduğu qənaətinə gəlib. Waringə görə, yadplanetlilərin bu qədər qabaqcıl texnologiyalara sahib olması təəccüblü deyil.

Çünki, sivilizasiyanın 13 milyard il yaşı var. Tayvanlı ufoloq mütəmadi olaraq NASA-nı agentlik mütəxəssislərini yadplanetlilər haqqında məlumatları gizlətməkdə ittiham edib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə
Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39
e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.